RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 125 (9580) 14 iyun 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Nadir və klassik

## İlham Əliyev dünyanın təbiət inciləri sırasında olan Palçıq Vulkanları Turizm Kompleksini istifadəyə verdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına kompleksdə görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində mövcuddur. Azərbaycan palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb. Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. İyirmi hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Palçıq Vulkanları Turizm Kompleksi 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.

→ 2

# Qurtuluşun XOCALI ünvanı



## İlham Əliyevin yenidən qurduğu şəhər indi daha əzəmətli və möhtəşəm görünür

Bir gecədə yandırılaraq məhv edilən şəhər...

Taleyin acı sınağından çıxan Xocalı...

32 il öncə burada puç olan arzular indi Zəfər çiçəyi açıb...

Tarixin ən dəhşətli soyqırımı acısını yaşayan şəhər tam başqa libasa bürünüb. İşğaldan azad olunmuş digər ərazilərimiz kimi, Xocalı da əzəmətli tikinti meydanını xatırladır.

Şəhərin asfalt küçələrini gəzib dolaşdıqca yeni mənzillər, salınmış yaşıllıqlar və davam edən inşaat işləri insanın ürəyini dağa döndərir. Böyük Zəfərin yaratdığı reallığı məhz belə yerdə daha çox hiss edirsən.

32 ildən sonra diqqətlər yenidən Xocalı şəhərinə yönəlib. Ancaq bu dəfə şəhid Xocalı yox, qəhrəman Xocalı kimi...

Başımızın üstündə dalğalanan üçrəngli bayrağımız, möhtəşəm tikinti-quruculuq və Xocalıya yenidən dönənlərin sevinci insanda fəxarət, qürur hissi yaradır.

Bir zamanlar tarixin ən dəhşətli faciəsini yaşayan Xocalı sakinləri indi yurda dönüb, söndürülmüş çıraqlarını yenidən yandırırlar. Cəmi 8 ayda Xocalıda möhtəşəm quruculuq işləri həyata keçirilib.

Xatırladaq ki, Müzəffər Ali Baş Komandan 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağını qaldırdıqdan sonra burada böyük abadlıq işlərinə də start verilib. Bu qısa zamanda Azərbaycan yalnız öz iqtisadi qüdrəti hesabına Xocalıda yeni və müasir şəhər salıb.

Bu gün isə vaxtilə soyqırımından sağ çıxmış və uzun illər məcburi köçkün həyatı yaşamış sakinlərin Prezident İlham Əliyevin tapşırığına əsasən, yenidən bərpa edilən və tikilən doğma şəhərə qayıdışı davam edir.

Xankəndi şəhərində, Ağdərə və Xocali rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin Xocalı rayonu üzrə əhalinin məskunlaşma şöbəsinin əməkdaşı Elşən Mehrəliyevlə birgə şəhəri gəzib görülən işlərlə tanış oluruq.

→ 7

# İqtisadi yüksəlişdə özəl sektorun özəl payı

## İslahatlar hesabına bu payın həcmi ilbəil artır




Prezident İlham Əliyev də ölkəyə rəhbərlik etdiyi ilk dövrdən iqtisadi və sosial islahatların genişləndirilməsi istiqamətində praqmatik addımlar atır.

İslahatlarla müşayiət olunan bu addımlar dünyada da yüksək qiymətləndirilir. Biznes və investisiya mühitinin əlverişliyini xarakterizə edən Dünya Bankı "Doing Business" hesabatının 2008-ci və 2018-ci illərdəki nəşrlərində Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. 2019-cu ildə isə Azərbaycan 10 ən çox islahat aparan ölkələr sırasına daxil olmaqla 190 dövlət arasında 28-ci yeri tutub. Dünya Bankının sonuncu hesabatında Azərbaycan biznesə başlama indikatoruna görə dünyada 9-cu, kreditlərin əldə olunmasına görə 1-ci yerdə qərarlaşıb.

Bunlardan əlavə, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatının sonuncu reytinq nəşrində Azərbaycan reytinq üzrə ən yüksək artım tempinə (11 pillə irəliləyiş) malik ölkə olaraq 58-ci yerə yüksəlib. Hesabata görə, Azərbaycan hökuməti uzunmüddətli strategiya üzrə dünyada 10-cu, ən önəmlisi - ölkə rəhbərinin islahatlara sadiqliyi sahəsində 5-cidir. Dünya İqtisadi Forumunun nüfuzlu "İnklüziv İnkişaf İndeksi"nin sonuncu nəşrində isə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında 3-cü (74 ölkə arasında) olub.

→ 10

# Müstəmləkəçi Fransa söz azadlığına da qarşı çıxır

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirə dünyanın bir çox ölkəsindən olan jurnalistlər dəvət ediliblər. Həmçinin azərbaycanlı jurnalistin də toplantıda iştirakı əvvəlcədən müəyyənləşdirilib və bu məqsədlə bütün zəruri prosedurlar yerinə yetirilib. Jurnalistin çoxgirişli Şengen vizası, seminara dəvəti və digər sənədlər qaydasında olub. Almaniyanın rəsmi qurumları da Fransanın tələbinin əsassız olduğunu görüblər və jurnalistin ölkəyə daxil olmasına icazə verilib.



Fransa bu davranışı ilə söz və ifadə azadlığını məhdudlaşdırmaq niyyətində olduğunu, media dəyərlərini heçə saydığını, bir sözlə, demokratik dəyərləri ayaqlar altına atdığını ortaya qoydu. Onsuz da Fransanın KİV-i qərəz alətinə çevirməsi də çoxdan bəllidir. Vətən müharibəsindən, eləcə də antiterror tədbirlərindən sonra Fransa tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasında da mediadan genbol faydalanmışdılar.

Jurnalistimizə qarşı sərgilənən bu qanunsuz davranış fonunda Fransanın Azərbaycana birbaşa qərəzi açıq şəkildə görünür.

→ 9

# Makronun aqibəti tezliklə bəlli olacaq

## Fransa Avropa İttifaqında sabitliyi poza bilər

Fransa Prezidenti bir tərəfdən partiyasının Avropa seçkilərində məğlub olması ilə zəifləyib, digər tərəfdən, gələn ay erkən qanunvericilik seçkilərində millətçilər qalib gələrsə, o, hakimiyyətin bölüşdürülməsi məsələsini müzakirə etməyə məcbur ola bilər. Nəticədə Fransanın və onun liderinin səsi böyük ehtimalla Avropa İttifaqında və dünyada daha az eşidiləcək. Fransa Prezidentinin hazırkı müxalifətlə tərəfdaşlıq müqaviləsi bağlayacağı halda Avropa qanunvericiliyinin inkişafına təsirini itirmək riski ilə üzləşəcəyi qaçılmaz olacaq.

Avropa Siyasəti Mərkəzindən bildirilir ki, əgər Makron daxili-siyasi işlərlə məşğul olarsa və Jordan Bardella Fransa adından baş nazir kimi çıxış edərsə, Avropa İttifaqında çətinliklər yarana bilər.

→ 9

# Parisdən Berlinədək...

## Bu gün Futbol üzrə 17-ci Avropa Çempionatı başlayır

Futbolsevərlərin böyük həyəcanla gözlədiyi an gəlib çatdı. Bu gün Almaniyada futbol üzrə sayca XVII Avropa çempionatı start götürəcək.

Qitə birinciliyinin açılış matçında A qrupunda yer alan komandalar - meydan sahibləri Almaniya və Şotlandiya seçmələri üz-üzə gələcəklər. 6 qrupda 24 komandanın yer alacağı çempionatda qruplarında birinci və ikinci yerləri, həmçinin dörd ən yaxşı üçüncü yeri tutan yığmalar 1/8 finala yüksələcəklər.

İyulun 14-dək davam edəcək çempionata 10 şəhər evsahibliyi edəcək.

→ 11



# Nadir və klassik

## İlham Əliyev dünyanın təbiət inciləri sırasında olan Palçıq Vulkanları Turizm Kompleksini istifadəyə verdi

*Əvvəli 1-ci səh.*











Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin "Böyük pişiklər", "Qobustan faunası", "Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri", "Azərbaycanın həşərat dünyası", "Kiçik ölçülü heyvan skeletləri" guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Sərgidə nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir. Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Sərgidə Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar nümayiş etdirilir. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Kompleksdə yaradılmış Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən - Qobustandan tutmuş Naxçıvana qədər əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri görə bilərlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya brekçiyasının nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan minerallar nümayiş etdirilir. Burada ziyarətçilərə Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur. Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradacaq.

Qeyd edək ki, ərazidə 110 nəfərlik restoran da tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib. Burada panoramlı müşahidə nöqtəsi və meydança da salınıb. Bu meydançaya qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edəcəklər.

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4-cü bənddə "on doqquzuncu" sözləri "iyirminci" sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində "qəyyumluq və himayə orqanları", 7-ci maddəsinin altıncı hissəsində "qəyyumluq və himayəçilik orqanı" və yeddinci hissəsində "qəyyumluq və himayə orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;".

2. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə "16.1 - 16.3-cü" sözləri "16.1-ci maddəsinin birinci abzasında, 16.2-ci və 16.3-cü" sözləri ilə əvəz edilsin;

2.2. 2.3-2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin Qanunun 14-cü maddəsinin adında və 14.0-cı maddəsinin birinci abzasında "qəyyumluq və himayə orqanları" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 16-cı maddəsinin adında, 16.2-ci və 16.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 16.1-ci maddəsinin birinci abzasında "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

2.5.1. həmin Qanunun 16.1.1-ci, 16.1.3-cü, 16.1.5-16.1.7-ci maddələrinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;

2.5.2. həmin Qanunun 16.1.2-ci və 16.1.4-cü maddələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;

2.5.3. həmin Qanunun 16.1.8-ci maddəsinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;";

2.3. aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 16.1.5-ci maddəsində "qəyyumluq və himayə orqanları" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5.18-ci yarımbəndə "verilmiş" sözündən sonra ", habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş" sözləri əlavə edilsin;

3.2. 2.8-ci bənddə "Yerli" sözü "Bu Qaydanın 2.5.18-ci yarımbəndi nəzərə alınmaqla, yerli" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,13 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının birgə iclası keçirilib

**Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində "Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli 4078 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icra vəziyyəti, o cümlədən Sərəncama əsasən, özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturuna daxil olan "Azərikimya" İstehsalat Birliyi (Etilen-Polietilen zavodu), Karbamid zavodu və Metanol zavodu, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti) hazırlıq vəziyyəti, dövlət müəssisələrinin kommersiya və maliyyə təhlilləri, hər bir müəssisə üzrə fərdi yol xəritəsi, özəl investisiyaların cəlb edilməsi üzrə qanunvericilik bazasına tələb olunan dəyişikliklər, həmçinin biznesə yönəlik dövlət xidmətləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla, müzakirə edilən məsələlər barədə qərarlar qəbul olunaraq aidiyyəti qurumlara və AİH-in İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 297** QƏRAR **Bakı şəhəri, 12 iyun 2024-cü il**

### "Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 298** QƏRAR **Bakı şəhəri, 12 iyun 2024-cü il**

### "Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 65 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin Əsasnamələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 65 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanun vericilik Toplusu, 2000, № 4 (IIkitab), maddə 311 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanla Belarus arasında əlaqələr yüksək səviyyədədir

**Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Roman Qolovçenko ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, son bir ayı Azərbaycan-Belarus əməkdaşlığı ayı kimi qiymətləndirən Baş nazir deyib ki, bu dövr ərzində ölkə rəsmiləri arasında qarşılıqlı səfərlərin həyata keçirilməsində kifayət qədər intensivlik müşahidə olunub. Onun sözlərinə görə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana, Azərbaycan Baş nazirinin Belarusa səfəri, həmçinin Hökumətlərarası Komissiyanın Minskdə keçirilmiş növbəti iclası fonunda Milli Məclis Sədrinin Belarusa səfəri ölkələrimiz arasında münasibətlərin inkişafına çox mühüm töhfələr verməklə yanaşı, əlaqələrimizin yüksək səviyyədə olduğunun göstəricisidir.

Görüşdə iki ölkə arasında əlaqələrin inkişafında dövlət başçıları arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin rolu xüsusi vurğulanıb. Bildirilib ki, dövlət başçılarının əlaqələrimizin genişləndirilməsinə dair tapşırıqları müvafiq dövlət qurumları tərəfindən uğurla yerinə yetirilir.

Qeyd olunub ki, Prezident İlham Əliyevin Belarus Respublikasına 2018-ci ildə həyata keçirilən rəsmi səfəri, o cümlədən Prezident Aleksandr Lukaşenkonun ötən ay Azərbaycana dövlət səfəri və bu səfərlər zamanı imzalanmış sənədlər münasibətlərimizə xüsusi təkan verib. Xatırladılıb ki, bu günədək Azərbaycan və Belarus arasında siyasi, iqtisadi, sosial, humanitar, elmi-texniki və regional əməkdaşlıq məsələlərini əhatə edən 150-yə yaxın sənəd imzalanıb ki, bu sənədlər ikitərəfli münasibətlərin inkişafı üçün möhkəm hüquqi əsaslar yaradıb.

Baş nazir Roman Qolovçenko parlamentlərimiz arasında da əlaqələrin ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edərək, Milli Məclis Sədrinin bu səfərinin əlaqələrin parlament ölçüsündə daha da genişləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində keçirilən görüşlər barədə məlumat verib. Bildirib ki, səfər çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın bir çox sahələrinə dair fikir mübadiləsi aparılıb. O cümlədən qanunvericilik sahəsində münasibətlərin daha da dərinləşdirilməsi ilə bağlı faydalı müzakirələr olub. Qeyd olunub ki, ölkələrimiz arasında əlaqələrə daha da böyük töhfə vermək üçün qanunvericilik sahəsində birgə fəaliyyət, o cümlədən parlament komitələri arasında əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədəuyğundur.

Azərbaycanın müstəqillik dövründə əldə etdiyi nailiyyətlər barədə qarşı tərəfə məlumat verən Milli Məclisin Sədri deyib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev ölkəmizdə xalqımızın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişaf yoluna qədəm qoyub. Ölkənin iqtisadi-sosial inkişafının əsasları formalaşdırılıb. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən neft strategiyası ölkəmizin qarşısında böyük imkanlar açıb. Hazırda isə Prezident İlham Əliyevin uğurlu rəhbərliyi ilə Azərbaycan bütün istiqamətlər üzrə böyük nailiyyətlər əldə edir.

Baş nazir Roman Qolovçenko da deyib ki, Azərbaycan müstəqillik dövründə möhtəşəm inkişaf yolu keçib.

Söhbət zamanı spiker Sahibə Qafarova Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verib. Bu işlərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiq olunduğu, bərpaolunan enerji mənbələrindən istifadə edildiyi diqqətə çatdırılıb. Bərpa işlərində Belarus şirkətlərinin də iştirakı ilə bağlı əldə olunmuş razılaşma yüksək qiymətləndirilib.

Görüşdə vurğulanıb ki, Azərbaycanla Belarus arasında iqtisadi-ticari sahələrdə əməkdaşlıq dinamik inkişaf edir, kənd təsərrüfatı, emal sənayesi və bir sıra digər sahələrdə daha yüksək nəticələr əldə etmək üçün yaxşı imkanlar mövcuddur.

***"Azərbaycan"***

# Milli Məclisin nümayəndə heyəti Belarus Milli Kitabxanasında olub

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Belarus Milli Kitabxanasında olub. Nümayəndə heyəti kitabxanada yaradılan şəraitlə tanış olub, burada saxlanılan kitablar barədə məlumat alıb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlament nümayəndə heyəti burada yaradılan Azərbaycana həsr olunmuş bölmə ilə də tanış olub. Milli Məclisin Sədri kitabxanaya Azərbaycan dövlətçilik tarixi haqqında, həmçinin "Qarabağ: işğaldan əvvəl və işğaldan sonra" kitablarını hədiyyə edib.

Sonra Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Azərbaycan parlament nümayəndə heyəti, həmçinin Minskdə "Horizont" Elektronika və İnnovasiyalar Mərkəzi və ilk Milli Ticarət Evi ilə də tanış olub. Burada qonaqlara Belarus istehsalı olan müxtəlif məhsullar haqqında məlumat verilib.

***"Azərbaycan"***

# Milli Məclisdə gənc diplomatlarla görüş keçirilib

**İyunun 13-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, sədr müavini Sevinc Fətəliyeva və komitənin üzvü Asim Mollazadə ADA Universitetinin "Xarici Siyasət Proqramı"nda iştirak edən bir qrup gənc diplomatla görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ADA Universitetinin təmsilçisi Aygün Hacıyeva görüşdə "Xarici Siyasət Proqramı" barədə qısa məlumat verib. Bildirilib ki, 2018-ci ildən bu günədək 70-ə yaxın ölkədən olan 116 diplomat bu proqramda uğurla iştirak edib.

Qonaqları salamlayan Səməd Seyidov Azərbaycan parlamentinin strukturu, fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Parlamentin beynəlxalq diplomatiya sahəsindəki uğurlu fəaliyyəti haqqında danışılıb, qanunverici orqanımızda 103 ölkə ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyət göstərdiyi bildirilib. Milli Məclisin 17 beynəlxalq parlament təşkilatı ilə uğurlu əməkdaşlığından söhbət açan komitə sədri diqqətə çatdırıb ki, hazırda parlament TÜRKPA, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Asiya Parlament Assambleyası da daxil olmaqla, üç beynəlxalq parlament qurumuna sədrliyi həyata keçirir.

Regionda yaranmış yeni reallıqlardan söz açan Səməd Seyidov, Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin 14 fevral tarixində keçirilən andiçmə mərasimində ölkəmizin xarici siyasət kursu ilə bağlı söylədiyi nitqindəki strateji seçiminə diqqət çəkib. Komitə sədri deyib ki, ölkə başçısının çıxışı zamanı səsləndirdiyi "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" fikri ölkəmiz üçün strateji məqsəd və vəzifələri müəyyən edir.

Azərbaycanın tarixi, mədəniyyəti, multikultural dəyərləri barədə danışan komitə sədrinin müavini Sevinc Fətəliyeva və deputat Asim Mollazadə ölkəmizin yürütdüyü daxili və xarici siyasətin prioritetləri haqqında fikirlər səsləndiriblər, parlamentə seçkilərin keçirilməsi qaydaları, siyasi partiyaların və qadınların parlamentdə təmsilçiliyi, həmçinin onların cəmiyyətdəki rolu haqqında qonaqlara məlumat veriblər. Deputatlar gənc diplomatlarla keçirilən belə görüşlərin əhəmiyyətini qeyd ediblər.

Söhbət zamanı Ermənistanla ikitərəfli əsasda davam edən sülh danışıqları, Azərbaycanın neokolonializmə qarşı nümayiş etdirdiyi barışmaz mövqeyi, ölkəmizin bu ilin noyabr ayında Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibi seçilməsi barədə də tədbir iştirakçılarına məlumat verilib.

Görüş diplomatları maraqlandıran mövzuların müzakirəsi ilə davam edib, onların sualları cavablandırılıb.

***"Azərbaycan"***

# Əmək və məşğulluq münasibətləri tamamilə elektronlaşdırılır

**İyunun 13-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Komitə sədri Musa Quliyev bildirib ki, gündəliyə ölkə Prezidentinin imzası ilə Milli Məclisə daxil olmuş iki qanun layihəsinin müzakirəsi daxil edilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb.

Sənədin elektron hökumət quruculuğu prosesinin daha da genişləndirilməsinə, əmək münasibətlərinin elektronlaşdırılmasının daha geniş hüquqi bazasının yaradılmasına xidmət etdiyini deyən Musa Quliyev layihəni təqdim etmək üçün Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyevə söz verib.

Adil Vəliyev layihənin əmək münasibətləri, dövlət sosial sığorta və məşğulluq sahələrində rəqəmsal xidmətlərin genişləndirilməsinin hüquqi əsaslarını müəyyən edən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə hazırlandığını bildirib. O deyib ki, 11 qanun üzrə 142 adda dəyişikliyi ehtiva edən layihə əmək münasibətlərinin rəsmiləşdirilməsi, əməyin təşkili, ödənilməsi və mühafizəsi, həyata keçirilən məşğulluq tədbirlərinin və digər məsələlərin tam elektronlaşdırılmasına zəmin yaradacaq.

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev məsələ ilə bağlı çıxış edib. Təqdim olunan layihəni Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatların davamı kimi dəyərləndirən nazir müavini ölkədə əmək hüquqlarının qorunması və layiqli əməyin təmin olunması, beynəlxalq standartların tətbiqi istiqamətində görülən işlərdən bəhs edib.

Anar Əliyev bildirib ki, Əmək Məcəlləsinə və digər 10 qanunvericilik aktına təklif olunan dəyişikliklərin əsas qayəsini əmək və məşğulluq münasibətlərinin tamamilə elektronlaşdırılması təşkil edir. Qeyd olunub ki, bu sahədə əsas addımlardan biri əmək müqaviləsi bildirişlərinin ləğv edilməsindən və işəgötürənlə işçi arasında əmək müqavilələrinin elektron formada bağlanması imkanının yaradılmasından ibarətdir.

Layihənin müzakirəsində komitə sədri Musa Quliyev, komitə üzvləri Ziyad Səmədzadə, Vüqar Bayramov, İlham Məmmədov, Rauf Əliyev və Sevinc Hüseynova çıxış ediblər. Onlar əmək müqavilələrinin müddətlərinin optimallaşdırılması, əhalinin məşğulluğu strukturunun təkmilləşdirilməsi, elektron dövlət xidmətlərinə çıxış xərclərinin minimallaşdırılması və digər məsələlərlə bağlı fikirlərini bildiriblər, təklif olunan dəyişikliklər üzrə qeydlərini və suallarını səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitədə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb.

Layihə barədə məlumat verən komitə sədri Musa Quliyev bildirib ki, təklif olunan dəyişiklik şəhid ailəsi üzvlərinin mənzil şəraitinin yaxşılaşdırılması və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınma üzrə normativ tənzimləmənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Müzakirədə deputatlar Aqil Məmmədov və Arzu Nağıyev layihə ilə bağlı fikirlərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ombudsman Fransa hökumətinin Azərbaycanın media nümayəndəsi ilə bağlı qərəzli hərəkətinə münasibət bildirib

**Azərbaycan Respublikasının insan hüquqlari üzrə müvəkkili Səbinə Əliyeva (ombudsman) Fransa hökumətinin azərbaycanlı jurnalistlə bağlı qərəzli hərəkətinə münasibət bildirib.**



Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib. Vurğulanıb ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi tərəfindən Almaniyanın Bonn şəhərində keçirilən tədbirdə iştirak üçün həmin ölkəyə səfər etmiş azərbaycanlı jurnalist iyunun 11-də Köln/Bonn Hava Limanında saxlanılıb və ona Fransa tərəfindən Şengen ərazisinə girişinin bloklanması barədə məlumat verilib. Həmin tədbirə dəvət edilmiş azərbaycanlı jurnalist bir neçə saat hava limanında saxlanıldıqdan sonra Almaniyanın müvafiq orqanları tərəfindən həyata keçirilmiş araşdırmalar nəticəsində bu tələbə dair hər hansı qanuni əsasın olmadığı aydınlaşdırılıb və bundan sonra jurnalistin ölkəyə girişinə icazə verilib.

Diqqətə çatdırılıb ki, azərbaycanlı jurnalistə qarşı bu cür pis rəftar beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də söz, media azadlığı hüququnu, informasiya əldə etmək hüququnu kobud şəkildə pozur, eyni zamanda jurnalistlərin sərbəst fəaliyyətinə məhdudiyyətin tətbiq olunmasına rəvac verir.

Qeyd olunmalıdır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, hər bir şəxs əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna, maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı, istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığına malikdir. Eyni zamanda Fransa iştirakçısı olduğu "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarına da zidd hərəkət edib. Xüsusilə bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyi nəzərə alınmaqla, məhz iqlim dəyişikliyi mövzusuna həsr olunmuş tədbirdə Azərbaycanın media nümayəndəsinin iştirakına bu şəkildə maneə törədilməsi yolverilməzdir.

Bildirilib ki, Fransanın siyasi münasibətlər, habelə əsassız qərəzli yanaşmalar səbəbindən jurnalistin peşə fəaliyyətini yerinə yetirməsinə əngəl törətməsi, habelə hərəkət azadlığını məhdudlaşdırmağa yönəlmiş bu cür addım atması aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən pislənilməli və məsələ ilə bağlı zəruri araşdırmalar aparılmalıdır.

# Ölkələrimizin birliyi türk dünyasında tərəqqiyə xidmət edir

## Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında "Qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında" Memorandum imzalanıb

**İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP-ın dəvəti ilə ölkəmizdə səfərdə olan Qazaxıstanın "AMANAT" partiyasının icra katibi Daulet Kəribekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə məlumat verib ki, "AMANAT" partiyasının nümayəndələri iyunun 15-də Şuşa şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfər ediblər.

Tahir Budaqov Azərbaycan ilə Qazaxıstan arasında tarixi köklərə və ortaq dəyərlərə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin nümunəvi xarakter daşıdığını və yüksələn xətt üzrə inkişaf etdiyini bildirib.

Beynəlxalq münasibətlər sisteminin hazırkı reallıqlarının türk dünyası üçün də yeni çağırışlar yaratdığını söyləyən YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan ilə Qazaxıstan milli maraqlara əsaslanan siyasət həyata keçirməklə türk dövlətləri arasında münasibətlərin inkişafına və Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə dəyərli töhfələr verirlər: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim ailəmiz türk dünyasıdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra yaranmış reallıqlar nəticəsində türk dünyasında da münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib: "Ölkələrimizin birliyi türk dünyasında tərəqqiyə xidmət edir və yeni mərhələdə birgə fəaliyyətimiz Türk Dövlətləri Təşkilatının qlobal güc mərkəzinə çevrilməsinə hədəflənib".

Azərbaycanla Qazaxıstanın hakim partiyaları arasında münasibətlərin inkişafının diqqət mərkəzində olduğunu bildirən Tahir Budaqov "Biz dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq partiyalarımız arasında əməkdaşlığın genişləndirilməsi yönündə sistemli fəaliyyətimizi uğurla davam etdiririk",- deyə bildirib.

O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında "Qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında" Memorandumun imzalanması partiyalararası münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoyacaq, çoxşaxəli əməkdaşlığın əsaslarını daha da möhkəmləndirəcəkdir: "Qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması, işbirliyinin uğurla davam etdirilməsi həm partiyalar, həm də dövlətlər arasında münasibətlərin inkişafına töhfələr verəcək. Birlikdə görəcəyimiz işlər bizə yeni nailiyyətlər qazandıracaq".

Azərbaycana səfər etməkdən məmnunluğunu bildirən "AMANAT" partiyasının icra katibi Daulet Kəribek dəvətə, yüksək qonaqpərvərliyə və səmimi münasibətə görə təşəkkürünü bildirib.

Azərbaycan ilə Qazaxıstanın qarşılıqlı faydalı işbirliyinə xüsusi əhəmiyyət verdiklərini qeyd edən D.Kəribek hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduğunu vurğulayıb.

Türk Dövlətləri Təşkilatının ölkələrimiz və bütün türk dünyası üçün səmərəli əməkdaşlıq platforması olduğunu diqqətə çatdıran icra katibi qeyd edib ki, TDT-nin beynəlxalq münasibətlər sistemində rolunun artırılması real strateji hədəfdir və bu istiqamətdə səylərin səfərbər edilməsi olduqca önəmlidir.

Daulet Kəribek siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli rol oynadıqlarını vurğulayaraq YAP ilə "AMANAT" partiyası arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandumun imzalanmasının tarixi əhəmiyyətə malik olduğunu bildirib. O, memorandumda əksini tapan məsələlərin partiyalararası əməkdaşlığın əsas istiqamətlərini və ümumi hədəfləri müəyyən etdiyini diqqətə çatdırıb.

İyunun 15-də Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransa dəvətə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarığını ifadə edən Daulet Kəribek tədbirin bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib.

Qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərin də müzakirə edildiyi görüşün sonunda Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında "Qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında" Memorandum imzalanıb. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və "AMANAT" partiyasının icra katibi Daulet Kəribek imzalayıblar.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Türk Dövlətləri Təşkilatının gücləndirilməsi ölkələrimizin müştərək strateji hədəfidir

## Azərbaycan ilə Özbəkistanın hakim partiyaları arasında Əməkdaşlıq Memorandumu imzalanıb

**İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyasının (UzLiDep) nümayəndələri ilə görüş keçirilib.**



Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, Özbəkistan nümayəndə heyəti iyunun 15-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək üçün YAP-ın dəvəti ilə ölkəmizə səfərə gəlib.

Tahir Budaqov Azərbaycanla Özbəkistan arasında dostluq, qardaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini bildirib.

Azərbaycanın xarici siyasət kursunda türk dövlətləri ilə əlaqələrin strateji prioritet olduğunu söyləyən YAP Sədrinin müavini bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm addımlar atıldığını və müsbət nəticələr əldə olunduğunu vurğulayıb.

Tahir Budaqov Azərbaycan-Özbəkistan əməkdaşlığının həm ikitərəfli münasibətlərin inkişafı, həm də türk dünyasında çoxşaxəli işbirliyinin dərinləşdirilməsi baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib.

Öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olan Azərbaycanın regional və beynəlxalq miqyasda mühüm geostrateji reallıqlar formalaşdırdığını vurğulayan Tahir Budaqov ölkəmizin tarixi Zəfərinin türk dövlətləri üçün də yeni perspektivlər yaratdığını bildirib. Türk dövlətlərinin ortaq maraqlara əsaslanan birgə təşəbbüslərinin önəminə diqqəti cəlb edən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu kontekstdə Türk Dövlətləri Təşkilatının gücləndirilməsi ölkələrimizin müştərək strateji hədəfidir.

Tahir Budaqov türk dünyasında hakim siyasi partiyalar, o cümlədən Yeni Azərbaycan Partiyası və Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası arasında əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb. İki hakim partiya arasındakı əlaqələrin Azərbaycan-Özbəkistan münasibətlərinin önəmli tərkib hissəsi olduğunu nəzərə çatdıran YAP Sədrinin müavini, partiyalar arasında Əməkdaşlıq Memorandumunun imzalanmasının qarşılıqlı faydalı işbirliyi üçün etibarlı zəmin yaratdığını bildirib. "Bu memorandum əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən mühüm "yol xəritəsi"dir",- deyən Tahir Budaqov qarşıda duran bütün hədəflərin gerçəkləşdiriləcəyinə əminliyini bildirib.

YAP Sədrinin müavini Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransın türk dünyasında münasibətlərin inkişafı baxımından səmərəli olacağına inamını ifadə edib.

Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası sədrinin müavini, Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri Aktam Xaitov ölkəmizə səfər etməkdən məmnunluğunu bildirib və yüksək qonaqpərvərliyə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlığını ifadə edib.

Özbəkistanın Azərbaycanla münasibətlərə böyük önəm verdiyini diqqətə çatdıran Aktam Xaitov iki dost və qardaş ölkənin əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb. O, "Dövlət başçılarının iradəsi və uzaqgörən siyasəti Özbəkistan-Azərbaycan çoxşaxəli tərəfdaşlıq münasibətlərinə yeni ruh verib",- deyə bildirib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi nailiyyət kimi xarakterizə edən A.Xaitov özbək xalqının Azərbaycanın haqq işini birmənalı şəkildə dəstəklədiyini söyləyib. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yüksəksəviyyəli quruculuq işlərinin aparılmasının təqdirəlayiq olduğunu vurğulayıb.

Hakim partiyalar arasında əməkdaşlığın önəmini diqqətə çatdıran Aktam Xaitov "Biz partiyalararası əlaqələrə ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi vasitəsi kimi baxırıq. YAP və UzLiDep arasında memorandumun imzalanması ilə partiyalararası əməkdaşlıqda yeni mərhələ başlanır. Dostluğun, qarşılıqlı hörmət və etimadın təzahürü olan memorandumun uğurla icra olunması bizə yeni nailiyyətlər qazandıracaq, işbirliyimiz səmərəli nəticələr verəcək", - deyə bildirib.

İyunun 15-də Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransa dəvətə görə minnətdarlığını ifadə edən A.Xaitov bu tədbirin türk dünyası üçün aktual məsələlərlə bağlı fikir mübadiləsinin aparılması və gələcək işbirliyi prioritetlərinin müzakirəsi baxımından böyük önəm daşıdığını söyləyib.

Qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərin də müzakirə edildiyi görüşün sonunda Yeni Azərbaycan Partiyası ilə Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri Aktam Xaitov imzalayıblar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Prezidentin köməkçisi Hikmət Hacıyev Brüsseldə "NATO+Azərbaycan" formatında siyasi dialoqda iştirak edib və bir sıra görüşlər keçirib

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev iyunun 12-13-də Belçikada səfərdə olub.**







AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev səfər çərçivəsində NATO-nun Brüsseldəki mənzil-qərargahında müttəfiq dövlətlərin nümayəndələrinin qatıldıqları "NATO+Azərbaycan" formatında siyasi dialoqda iştirak edib.

Tədbirdə Hikmət Hacıyev müttəfiq dövlətlərin nümayəndələri ilə Azərbaycan-NATO tərəfdaşlığının hazırkı vəziyyəti və perspektivləri, ölkəmizin regional nəqliyyat bağlantılarının inkişafında, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rolu, COP29-a hazırlıq prosesi, ölkəmizin iqlim və "yaşıl həmrəylik" gündəliyi, eyni zamanda Ermənistanla normallaşma prosesi və sülh gündəliyinin irəlilədilməsi ətrafında müzakirələr aparıb.

Müttəfiq dövlətlərin təmsilçiləri Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini bildirib, NATO-nun etibarlı tərəfdaşı olaraq ölkəmizin Alyansla əlaqələrini yüksək qiymətləndirib, habelə NATO-nun missiya və əməliyyatlarına töhfələrini, Ukraynaya göstərdiyi humanitar dəstəyi təqdir ediblər. Eyni zamanda Azərbaycanın regional nəqliyyat bağlantılarında və Avropanın enerji təhlükəsizliyində mühüm rolu vurğulanıb, ölkəmizin "yaşıl enerji"yə keçid və iqlim dəyişikliyinə qarşı mübarizədə səyləri alqışlanaraq COP29 sədrliyinə dəstək ifadə edilib. Onlar Azərbaycanla Ermənistan arasında normallaşma prosesini və sülh gündəliyini yekdilliklə dəstəklədiklərini bildirib, iki ölkə arasında dövlət sərhədinin delimitasiyasına dair əldə olunan son razılaşmanı yüksək qiymətləndiriblər.

Səfər çərçivəsində Hikmət Hacıyev həmçinin NATO Baş katibinin köməkçisinin müavini Ceyms Appaturay, Baş katibin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina və Türkiyənin NATO yanında daimi nümayəndəsi Zeki Levent Gümrükçü ilə görüşlər keçirib.

Sonra Azərbaycan ilə Avropa İttifaqı arasında 5-ci Təhlükəsizlik Dialoqu təşkil olunub. Dialoq zamanı Avropa İttifaqının nümayəndə heyətinə Avropa Xarici Fəaliyyət Xidmətinin baş katibinin siyasi məsələlər üzrə müavini Enrique Mora rəhbərlik edib.

Tədbirdə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan normallaşma prosesi üzrə irəliləyişlər, işğaldan azad olunmuş ərazilərdə mina təhdidi ilə mübarizə, regional və beynəlxalq təhlükəsizlik məsələləri, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri barədə müzakirələr aparılıb.

Aİ tərəfi Azərbaycanın postmünaqişə dövründə regionun sabitliyi və inkişafı baxımından vacib rolunu vurğulayıb, ölkəmizin Avropanın təhlükəsizliyinə töhfəsini təqdir edib, Aİ-nin ölkəmizlə müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Dialoq zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyi, bərpaolunan enerji və nəqliyyat bağlantıları baxımından etibarlı tərəfdaş olduğu vurğulanıb, Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və "yaşıl keçid" sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı qeyd olunub.

Müzakirələrdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud olan mina problemi ətrafında fikir mübadiləsi aparılıb, Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstəyini davam etdirəcəyi bildirilib.

Səfər zamanı H.Hacıyev həmçinin Belçikanın Egmont Kral Beynəlxalq Münasibətlər İnstitutunun təşkil etdiyi "dəyirmi masa"da çıxış edib, Azərbaycan-Aİ əməkdaşlığının hazırkı gündəliyi, Azərbaycan-Ermənistan arasındakı sülh prosesi və regional məsələlər barədə iştirakçıları məlumatlandırıb.

Prezidentin köməkçisi, eləcə də Belçikanın xarici işlər nazirinin kabinetinin rəhbəri səfir Jan Hoogmartens ilə görüş keçirib. Görüşdə Azərbaycan ilə Belçika arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri üzrə müzakirələr aparılıb.

Səfər çərçivəsində H.Hacıyev nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələr verib.

# NATO-nun mobil təlim qrupu tərəfindən HHQ-də kurs keçirilir

**Bu il üçün NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq proqramına əsasən, NATO-nun Hərbi Hava Qüvvələri (HHQ) Komandanlığının Mobil Təlim Qrupu Bakıda HHQ-nin şəxsi heyəti ilə "HHQ-də hava məkanının idarə olunması və nəzarət" mövzusunda kurs keçirir.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kursun məqsədi NATO-da hava məkanının idarə olunması, eləcə də hava məkanına nəzarət fəaliyyətlərinin əsas prinsiplərini tədris etmək və dinləyicilərin ixtisaslar üzrə nəzəri biliklərini təkmilləşdirməkdir.

Qeyd edək ki, təlim kursu iyunun 14-dək davam edəcək.

# MİLLİ QURTULUŞ
## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2024

# Qurtuluşun Zəfər təntənəsi

**15 İyun - tarixinin ən qüdrətli Azərbaycanının müstəqilliyi və dövlətçiliyinin xilas günü - Milli Qurtuluş Günü kimi xalqımız tərəfindən hər zaman böyük ehtiramla qeyd edilir.**

**Bizləri bu tarixdən 31 illik zaman ayırır...**

**Amma hər bir tarixi gün, bayram keçilən yolun təhlilini bir zərurət kimi qarşıya qoyur, onun mahiyyətini daha dərindən dərk etməyə çağırır.**

**Yaşadığımız tarix, mahiyyətini dərk etdiyimiz reallıqlar onu deməyə əsas verir ki, Milli Qurtuluş Günü tariximizin şanlı məqamı, müasir dövlətçilik salnaməmizin isə ən şərəfli səhifəsidir. Çünki məhz həmin gün Azərbaycanın müstəqilliyinin davamlılığını, dövlətçiliyinin müqəddəratını həll edən tarixi andır. Onun müəllifi isə Azərbaycan xalqının xilaskar lideri Ulu Öndər Heydər Əliyevdir.**

**Bu gün Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü tam bərpa etməsi, üçrəngli bayrağımızın bütün ölkə ərazisində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda dalğalanmasının əsası 15 iyun 1993-cü ildə qoyulub.**

**Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın möhtəşəm nailiyyətləri Heydər Əliyevin ideyalarının təntənəsidir.**



### Naxçıvandan başlayan müstəqillik mücadiləsi

Bu bir həqiqətdir ki, əgər Ulu Öndər Heydər Əliyev 31 il öncə çox ağır məsuliyyəti üzərinə götürməsəydi, bu gün Azərbaycan müstəqilliyini itirmiş, torpaqları hələ də işğal altında olan, kimlərəsə vassallıq edən ölkə idi. Elə bu səbəbdən də 1993-cü ilin 15 iyun günü Azərbaycan dövlətinin və xalqının həyatında yeni dövrün başlanğıcı kimi qəbul edilir.

Əgər tarixə ekskurs edib ən yaxın keçmişə nəzər yetirsək, ömrünü xalqına, dövlətinə həsr edən Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərinə şahidlik etmiş olarıq.

1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi hər bir azərbaycanlı üçün çox qürurverici hadisə oldu. Bu illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırdı, sorağı SSRİ-nin hüdudlarını aşdı.

Ulu Öndər Moskvada yaşadığı və işlədiyi dövrdə də Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanırdı. 1987-ci ildə Heydər Əliyevə qarşı SSRİ rəhbərliyində, xüsusilə Sov.İKP MK-nın baş katibi M.Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq o, vəzifəsindən istefa verdi. Bununla belə, bütün qadağalara baxmayaraq, Ulu Öndər SSRİ-də və Azərbaycanda gedən prosesləri diqqətlə izləməkdə davam edir, xalqı ilə nəfəs alırdı. Onun gücü də məhz bunda idi. 1990-cı il yanvarın 20-də sovet qoşunları Bakıda qırğın törədəndən sonra buna ən sərt şəkildə etiraz edən məhz Ümummilli Lider idi. Həmin vaxt Heydər Əliyev İlham Əliyevlə birgə böyük cəsarət nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında təşkil olunan mətbuat konfransında SSRİ rəhbərliyini açıq formada kəskin tənqid etdi.

Dahi şəxsiyyət bir müddət Moskvada yaşadıqdan sonra Azərbaycanda - doğma diyarı Naxçıvanda yaşamağa üstünlük verdi və 1990-cı il iyulun 22-də muxtar respublikaya qayıtdı. Həmin vaxtlar blokada şəraitində olan Naxçıvan özünün ən çətin günlərini yaşayırdı. Muxtar respublikanın əhalisi bir tərəfdən Ermənistanın hücumlarının qarşısını almağa, digər tərəfdən bütün SSRİ məkanında baş alıb gedən hərc-mərclik və xaos nəticəsində bölgədə yaranmış siyasi, iqtisadi və sosial çətinlikləri aradan qaldırmağa çalışırdı.

Əlbəttə ki, Heydər Əliyev belə bir vəziyyətlə barışa bilməzdi. Hər tərəfdən olan təzyiqlərə baxmayaraq, xalqı üçün ölməyi şərəf bilən dahi lider Azərbaycanın müstəqilliyi naminə mübarizəyə qalxdı. Onun müstəqillik uğrunda əzmkarlıqla mübarizə apardığını görən Naxçıvan əhalisi Ulu Öndəri 1990-cı ilin sentyabr ayında Naxçıvanın və Azərbaycanın parlamentlərinə deputat seçdi.

Ümummilli Lider sessiyalarda Dağlıq Qarabağ problemi ilə əlaqədar Bakı rəsmilərinin yeritdiyi siyasəti və Moskvanın mövqeyini kəskin tənqid edir, SSRİ-nin tezliklə dağılacağını bəyan edirdi. Lakin həmin vaxtlar ölkəyə rəhbərlik edən iqtidar bu fikirlərə məhəl qoymur, Kremlə sədaqət nümayiş etdirirdi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsindən bir addım belə geri çəkilmirdi. 1990-cı il noyabr ayının 17-də muxtar respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü və israrı ilə doğma Azərbaycanımızın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin bərpasının əsası qoyuldu. Bundan başqa, Ulu Öndərin təklifi ilə muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandı. Habelə dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi.

Naxçıvan əhalisi Heydər Əliyevə böyük inam və ümid bəsləyərək onun muxtar respublikaya rəhbərlik etməsini arzu edirdi. Xalqın bu istəyi 1991-ci il sentyabrın 3-də reallaşdı və Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Sədr seçildi.

Ali Məclisin Sədri kimi Ulu Öndər öncə ağır günlərini yaşayan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün qardaş Türkiyə və İranla əlaqələri yaxşılaşdırdı. Muxtar respublikanın gələcək taleyini iqtisadiyyatın bazar münasibətləri əsasında inkişaf etməsində görən Ulu Öndər tezliklə islahatların həyata keçirilməsini önə çəkdi. Muxtar respublikada bütün qüvvələr və imkanlar əhalinin rifah halının yaxşılaşmasına və təhlükəsizliyin təmin edilməsinə səfərbər olundu. Azərbaycanda ilk dəfə iqtisadi və aqrar islahatlar muxtar respublikada həyata keçirilməyə başladı. Uğurla həyata keçirilən bu təxirəsalınmaz tədbirlər tezliklə öz bəhrəsini verdi, Naxçıvanda siyasi və iqtisadi vəziyyət getdikcə sabitləşməyə başladı. İqtisadiyyatda və dövlət quruculuğunda əldə edilən bu sabitlik erməni-lərin muxtar respublikaya hücumlarını mərdliklə dəf etməyə və cəbhədə sakitliyin bərqərar olmasına imkan yaratdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini və suverenliyini bərpa etdi. Bu tarix elə bir dövrə təsadüf edirdi ki, bir tərəfdən monfur qonşumuz Ermənistan separatçılıq siyasəti yürüdərək ərazi iddiası ilə bizi müharibəyə cəlb etmiş, digər tərəfdən yeni yaradılmış suveren dövlətin rəhbərliyinə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməyi, gələcəyi görmək və proqnozlaşdırmaq imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslər gəlmişdi. Belə vəziyyət cəbhədə gerginliyi artırmaqla yanaşı, hakimiyyət uğrunda mübarizəni də qızışdırmışdı. Bundan istifadə edən Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə Dağlıq Qarabağdan azərbaycanlıları zor gücünə qovur, etnik təmizləmə aparırdılar.

Bir reallıq da budur ki, Ulu Öndərin Naxçıvanın blokadadan qurtuluşu üçün ortaya qoyduğu səylər tezliklə öz bəhrəsini verdi və muxtar respublikanın bugünkü müasir inkişafı əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Liderin Naxçıvanın blokadadan çıxarılması üçün atdığı ilk addımlardan biri qardaş Türkiyə ilə əlaqələrin qurulması oldu. Həmin dövrdə Naxçıvanla Ulu Öndərin "Bir millət, iki dövlət" fikrinin reallığa çevrilməsi mərhələsi başlandı. Dahi şəxsiyyət 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalandı, Naxçıvanla Türkiyə arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanıldı. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verildi. Körpünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanıldı. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan verib, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirdi.

Dahi lider körpünün açılması zərurətini belə xarakterizə edirdi: "Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum".

Ulu Öndərin təşəbbüsü ilə yaradılan "Ümid körpüsü" iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurd-dan-yurda, könüldən-könülə körpü salmaq baxımından mühüm əhəmiyyət kəsb edirdi. Çünki Azərbaycan-Türkiyə və Naxçıvan əlaqələrinin müasir səviyyəsi, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlər şərh edilərkən məhz "Ümid körpüsü"nün əhəmiyyəti xüsusi vurğulanır. Bu körpü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olub. Bu körpü təkcə Naxçıvanın Türkiyə ilə əlaqələrinin yaradılması deyil, Azərbaycanın türk dünyasına açılan qapısı kimi xarakterizə edilməlidir.

Müasir Azərbaycanın memarı və qurucusu olan Ulu Öndər Naxçıvanın zülmətdən işığı sabaha çıxması üçün çox mütərəqqi addımlar atıb. Bu gün 100 yaşını qeyd edən Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı Ulu Öndərin qoyduğu təməllərin bəhrəsidir. Dahi liderin layiqli davamçısı, Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevirən, suverenliyimizi, ərazi bütövlüyümüzü tam təmin edən Prezident İlham Əliyev də muxtar respublikanın sürətli inkişafı üçün çox mühüm layihələr reallaşdırır, vacib sərəncamlar imzalayır. Onlardan biri də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"dır. Dövlət proqramının 2023-2024-cü illər üzrə təfsilatlı tədbirlər planında nəzərdə tutulan layihələrə diqqət yetirdikdə aydın şəkildə görünür ki, tezliklə muxtar respublikanın sosial-iqtisadi, mədəni həyatında inqilabi yeniliklər olacaq.

Prezident İlham Əliyevin sərəncamı ilə Naxçıvanda Prezidentin Səlahiyyətli Nümayəndəsi İnstitutunun fəaliyyətə başlaması və məqsədyönlü islahatların uğurla həyata keçirilməsi ilə muxtar respublikada yeni inkişaf mərhələsinin başlanması təmin edilib və qədim diyar bu gün müasir inkişaf mərhələsinə qədəm qoyub. Dövlət başçısının qədim diyarın daha da yüksəlişi ilə bağlı hazırladığı dövlət proqramı müasir Naxçıvanın yeni inkişafının yol xəritəsidir.

### İqtisadi və siyasi tənəzzüldən inkişaf mərhələsinə

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmizi sevməyən xarici və daxili qüvvələrin yaratdığı bir çox problemlə üzləşmişdik. Ermənistanda və Azərbaycanın Qarabağ bölgəsində yaşayan azərbaycanlılarin öz doğma yurdlarından erməni-lər tərəfindən zorla didərgin salınması, keçmiş Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi və bölgədə olan rayonların işğalı, müəyyən ərazilərdə separatizm meyillərinin təhlükəli vəziyyət alması, iqtisadi tənəzzül, xalqın sosial rifahının pisləşməsi və digər neqativ proseslər o dövrün acı mənzərəsi idi.

Azərbaycanın müasir dövlətçilik tarixinin ən faciəli və qanlı-qadalı dövrünə çevrilən 1993-cü ilin iyun hadisələri, kəskinləşən siyasi və hərbi böhran AXC-Müsavat iqtidarının siyasi yarıtmazlığının məntiqi nəticəsi idi. Hələ Gəncə hadisələrinə qədər ölkə idarəolunmaz vəziyyətə gəlib çıxmışdı, mərkəzdənqaçma meyilləri pik həddə çatmışdı. Hakimiyyətsizlik, anarxiya baş alıb gedirdi. İqtidarın bu cür idarəçiliyi vətəndaş müharibəsi və ölkənin parçalanması üçün zəmin yaratmışdı.

Bir sözlə, Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planı tam gücü ilə işə salınmışdı və AXC-Müsavat iqtidarının səriştəsizliyi buna rəvac verirdi. Xaos və özbaşınalıq, vətəndaş müharibəsi təhlükəsi insanlarda gənc dövlətin gələcəyi ilə bağlı böyük suallar doğururdu. Xalq belə mürəkkəb vəziyyətdən çıxış yolunu Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışında görür, ona etibar edir və ümidlər bağlayırdı. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə gələcək taleyini özü həll etməyə yaratdı.

Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Ümummilli Liderin iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə respublikanın çağdaş tarixində dönüş mərhələsi idi. Azərbaycan Milli Məclisinin 1997-ci il 27 iyun tarixli qərarı ilə 15 iyunun hər il Milli Qurtuluş Günü kimi qeyd edilməsi də obyektiv reallığa əsaslanır.

Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən xilas etməklə onu davamlı və dayanıqlı inkişaf yoluna çıxartdı. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Ümummilli Liderin uzaqgörənliyi, qətiyyətli siyasəti və dərin zəkasının işığında qədəm qoydu. Güclü iradə, fenomenal yaddaş, qətiyyət və liderlik qabiliyyəti ilə idarəetmə ustalığını özündə birləşdirmək bacarığına malik siyasətçi Azərbaycanı dünyaya tanıtdı, iqtisadi əlaqələrini genişləndirdi.

Azərbaycan qısa zamanda Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan güclü dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi. Bundan sonra Ulu Öndərin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami Silahlı Qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı. Digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yarandan beynəlxalq müqavilələr, razılaşmalar əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

### Qurtuluşdan Şuşa Bəyannaməsinə və suverenliyin tam təminatınadək

Qazanılan bütün uğurların əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Həm Heydər Əliyev, həm də İlham Əliyevi Azərbaycan xalqının xilaskar liderləri adlandırmaq olar. Əgər Ulu Öndər Azərbaycanı ən ağır, ən dəhşətli günlərdə müstəqilliyini itirmək təhlükəsindən qurtarıbsa, cənab İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib, 200 illik uydurma erməni xülyasına son qoyub, xalqının ən ağrılı problemi olan keçmiş Qarabağ münaqişəsini öz gücünə 44 günə həll edib.

2020-ci ilin sentyabrında başlayıb noyabr ayında Zəfərimizlə bitən İkinci Qarabağ müharibəsi, 2023-cü ildə həyata keçirilən lokal miqyaslı antiterror tədbirləri bir daha Azərbaycanın gücünü dünyaya nümayiş etdirdi.

Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam təmin edən böyük Zəfərin memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün dünyada sözü imzası qədər keçərli olan qlobal lider kimi tanınır.

Prezidentin həyata keçirdiyi tam müstəqil siyasətli Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır.

Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan çoxəsrlik tarixində heç vaxt bu qədər istiqrarlı, güclü olmayıb. Bütün bu hədsiz sevinci xalqımıza Müzəffər Ali Baş Komandan İlham Əliyev bəxş edib.

Azərbaycan xalqının Milli Qurtuluş Gününü qeyd etdiyi 15 İyun həm də tarixi Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümü ilə əlamətdardır. Əslində, bu iki tarixi hadisə arasında təbii bir bağ, inkarolunmaz əlaqə var. 1993-cü ildə Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı ilə bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas olaraq, inkişafa, sabitliyə, təhlükəsizliyə, öz qurtuluşuna qədəm qoyan Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada 28 il sonra Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu tarixi sənədə imza atmaları özlüyündə böyük bir rəmzi məna daşıyır. Bu, Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin, xalqlarımızın mənəvi birliyi ilə yanaşı, siyasi, iqtisadi sahədə də həmrəyliyinin möhkəmləndirilməsi, həmçinin bütün türk dünyasına böyük töhfədir. Şuşa Bəyannaməsi də, azad Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları da ölkələrimiz arasında sarsılmaz birliyi bütün dünyaya nümayiş etdirir.

Reallıq budur ki, qalib komandan kimi cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün və bütün ərazilərində suverenliyinin tam bərpasına nail olub. Hazırda Xankəndidə, Şuşada, Xocalıda, Ağdamda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə, Xocavənddə, Qubadlıda bayrağımız əzəmətlə dalğalanır. Başqa sözlə desək, Qarabağın separatçı xunta cilovundan azad olunması kimi mürəkkəb, hətta bəziləri tərəfindən həlli mümkünsüz görünən problem həll edilib və üstəlik Cənubi Qafqazda dünyanı heyrətə salan yeni reallıqlara imza atılıb.

Cənab İlham Əliyevin əsl Sərkərdə məharəti ilə düşməndən təmizlənən Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri aparılır və illərdən sonra soydaşlarımızın bu torpaqlara böyük köçü başlayıb.

*Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndərin siyasi varisi cənab İlham Əliyevin əlindədir. Xalqımız əmindir ki, müstəqil Azərbaycan dahi şəxsiyyət Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək. Azərbaycan daha da qüdrətləndikcə Ulu Öndərin ölməz ruhu şad olacaq.*

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

MİLLİ QURTULUŞ - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2024



# Sahibkarlığın Milli Qurtuluşdan başlayan tərəqqi yolu

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlər onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsasını qoyub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür.**

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı.

Amma hər kəs yaxşı anlayırdı ki, ölkədəki bu hərc-mərcliyi və siyasi çəkişmələri yalnız zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyev aradan qaldıra bilər. Bunun üçün Naxçıvana - Ulu Öndərin ünvanına yüzlərlə məktub, teleqram göndərildi. Bu müraciətlər təkcə maddi-mənəvi iztirablara məruz qalan xalqın sadəcə vəziyyətdən çıxış yolu axtarması deyildi. O həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi bir qərar idi.

1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələn Heydər Əliyev xilaskarlıq missiyasını cəsarətlə, qətiyyətlə yerinə yetirdi. Bir neçə gün sonra iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və beləliklə, 15 İyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. 1993-cü il iyunun 24-də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan Ulu Öndər 1993-cü il oktyabrın 3-də isə görünməmiş siyasi fəallıq və ruh yüksəkliyi ilə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi. Bu qayıdışla ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə start verildi. Dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanları olan Heydər Əliyev Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkədə qarşıdurmadan sülhə, böhrandan tərəqqiyə, ətalətdən dinamik fəaliyyətə istiqamətlənən həyat başlandı. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb, dirçəliş, ardınca isə inkişaf yoluna çıxarmaq idi. Təsadüfi deyil ki, Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. İnzibati-amirlik və planlı iqtisadi sistem dağıldıqdan sonra yeni iqtisadi sistemin qurulması, onun bazar prinsiplərinə uyğunlaşdırılması vacib idi. Bunun üçün ilk növbədə iqtisadi və hüquqi islahatlar həyata keçirilməli idi. 1994-cü ilin sentyabrında Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma" mövzusunda beynəlxalq konfransın keçirilməsi də bu məqsədə xidmət edirdi. Tədbirdə Azərbaycanda sahibkarlığın inkişaf perspektivləri geniş müzakirə olundu. Bildirildi ki, bu sahədə Qərb dövlətlərinin zəngin təcrübəsindən istifadə edilməlidir.

Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır. Onillik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı, iqtisadiyyatı çökmüş ölkəni dirçəltdi və inkişaf etdirdi. Onun çoxşaxəli fəaliyyəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Ulu Öndər bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üçün antiböhran proqramını işləyib hazırladı.

Dünyanın qabaqcıl şirkətləri ilə birlikdə neftin hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı. Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması həm də ölkə daxilində yeni istehsal sahələrinin artmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yaratdı.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən, iqtisadi tərəqqinin əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Təsadüfi deyil ki, Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi. Buna nümunə kimi 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Həmin görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, növbəti illər üçün Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramları təsdiq olunmuşdur. Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq Prezident İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, İlham Əliyev xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun sona çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıra biləcək. Belə də oldu.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını, intellektual resurslarını insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 ildən çox müddətdə ölkə iqtisadiyyatının bütün sahələri dinamik inkişaf etməyə başladı. Bu 20 il sübut etdi ki, İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla ölkə sahibkarlarının da sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, etimad və etibar ünvanı saydığı rəhbərdir. Bu ilin fevralında keçirilmiş prezident seçkiləri başa çatdıqdan sonra cənab İlham Əliyev andiçmə mərasimindəki çıxışında demişdir: "Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir". Bütün bunlar ölkəmizdə özəl sektora olan yüksək etimadın nümunəsidir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini təmin edir, bu inkişafda özəl sektorun payını və rolunu artırır. Dəfələrlə sübut olunub ki, Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülüb.

Hazırda Azərbaycan dövləti tərəfindən Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük tədbirlər həyata keçirilir. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması üçün infrastruktur layihələrinin reallaşdırılması, bu ərazilərdə sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, Qarabağ və Şərqi Zəngəzurda həyatın yenidən canlanması üçün qlobal işlər görülür. Bu zaman Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfər edir, iqtisadi rayonlarda yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışına qatılır. Prezident öz çıxışlarının birində bildirmişdir: "Bir daha demək istəyirəm, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz real nəticələr verir, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr bu reallıqlara gətirib çıxarıb. Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik".

Prezident işğaldan azad olunmuş rayonlara səfəri zamanı həm də iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırmışdır. Qeyd etmişdir ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır: "Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez həyata keçirilməsinə böyük töhfə verəcəkdir. Bu gün hər bir sahibkar dərk edir ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi üçün Prezident İlham Əliyevin liderliyi altında bizi vacib işlər gözləyir.

Hazırda bu missiyanı yüksək məsuliyyətlə üzərinə götürərək həyata keçirənlər arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Heydər Əliyev irsinin uğurla davam etdirilməsində, qələbələr qazanmasında Mehriban xanım Əliyevanın böyük fədakarlığı, layiqli xidmətləri çoxdur. Mehriban Əliyevanın Heydər Əliyevin adını daşıyan fondun rəhbəri kimi ölkə və dünya miqyasında həyata keçirdiyi mərhəmət aksiyaları, sosial layihələr Ulu Öndərin əbədiyaşar ruhuna ən böyük ehtiram nümunələridir. Mehriban xanım öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmışdır.

Azərbaycan sahibkarları Mehriban xanım Əliyevanın sahibkarlığın inkişafına verdiyi töhfələri yüksək dəyərləndirirlər. Son illər ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Mehriban xanımın rolu danılmazdır.

Regionların yeni siyasi-iqtisadi reallığından söz açarkən ilk növbədə 2004-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarını qeyd etmək lazımdır. Ötən illər ərzində şəhər və kəndlərdə, qəsəbələrdə çoxsaylı infrastruktur layihələri gerçəkləşib, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülüb. Ümumilikdə 4 proqramın icra olunduğu 20 ildə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat olub. Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, iş adamlarının maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində özəl bölmənin ümumi daxili məhsulda payı 83 faiz, məşğulluqda isə 78 faizdən artıq təşkil etmişdir. Ölkədə aktiv vergi ödəyicilərinin sayı isə 768 mindən çox olmuşdur. 2023-cü ildə Azərbaycanda açılmış iş yerlərinin 93 faizdən çoxu özəl sektor tərəfindən yaradılmışdır.

Ölkə sahibkarlarının təşkilatlanmasında və maariflənməsində Azərbaycan Sahibkarlar Konfederasiyasının rolu danılmazdır. Sahibkarlarımızı təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçiririk. Bu istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istərsə də sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması işinin daha da dərinləşdirilməsi ilə bağlıdır. Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Hazırda konfederasiya 15 daimi komissiya, 28 xarici ölkədə 24 nümayəndə və respublika üzrə 48 rayonda olan nümayəndə ilə təmsil olunur. Konfederasiya öz imkanlarından istifadə edərək, azad olunmuş torpaqlarda biznesin inkişafı, mövcud layihələrə xüsusi yanaşmaların tətbiq edilməsi və sahibkarların dövlətin dəstəyindən yararlanması üçün təşkilati yardım göstərməyə hazırdır.

Konfederasiya hazırda öz işini qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir. Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası ilə birlikdə sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizliyin təmin olunmasını Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindən hesab edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir. Məlumdur ki, ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə Azərbaycan Ticarət Evləri açılır və daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Bütün bunlar Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin yorulmaz fəaliyyətləri nəticəsində mümkün olmuşdur. Bu günlər bütün Azərbaycan xalqı kimi, Sahibkarlar Konfederasiyası da üzv sahibkarlarla birlikdə Milli Qurtuluş Gününü qeyd edir. Azərbaycan xalqına və dövlətinə Qurtuluş gətirmiş Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, Ulu Öndərin ölkə üçün gördüyü nəhəng işləri hər kəs öz sahəsində hiss edir. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində əldə etdiyi uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu Öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin adını bütün dünyada zirvələrə qaldırmışdır. Bu gün həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən Heydər Əliyev hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir.

*Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq bütün Azərbaycan xalqını, o cümlədən sahibkarları 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edirik. İnanırıq ki, Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək xalqımızın rifah halının yüksəldilməsi üçün öhdələrinə düşən vəzifələri daha da məsuliyyətlə yerinə yetirəcək, ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edəcəklər. Əminik ki, Milli Qurtuluş Günündən başlanan şərəfli inkişaf yolu Azərbaycanı daim parlaq tarixi nailiyyətlərə və qələbələrə aparacaq.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur





◆ Qarabağdan reportaj




# Qurtuluşun XOCALI ünvanı

## İlham Əliyevin yenidən qurduğu şəhər indi daha əzəmətli və möhtəşəm görünür




*Bir gecədə yandırılaraq məhv edilən şəhər...*

*Taleyin acı sınağından çıxan Xocalı...*

*32 il öncə burada puç olan arzular indi Zəfər çiçəyi açıb...*

*Tarixin ən dəhşətli soyqırımı acısını yaşayan şəhər tam başqa libasa bürünüb. İşğaldan azad olunmuş digər ərazilərimiz kimi, Xocalı da əzəmətli tikinti meydançasını xatırladır.*

Şəhərin asfalt küçələrini gəzib dolaşdıqca yeni mənzillər, salınmış yaşıllıqlar və davam edən inşaat işləri insanın ürəyini dağa döndərir. Böyük Zəfərin yaratdığı reallığı məhz belə yerdə daha çox hiss edirsən.

32 ildən sonra diqqətlər yenidən Xocalı şəhərinə yönəlib. Ancaq bu dəfə şəhid Xocalı yox, qəhrəman Xocalı kimi...

Başımızın üstündə dalğalanan üçrəngli bayrağımız, möhtəşəm tikinti-quruculuq və Xocalıya yenidən dönənlərin sevinci insanda fəxarət, qürur hissi yaradır.

### 140 fərdi yaşayış evi, 48 kottec tipli ev və 9 bina

Bir zamanlar tarixin ən dəhşətli faciəsini yaşayan Xocalı sakinləri indi yurda dönüb, söndürülmüş çıraqlarını yenidən yandırırlar. Cəmi 8 ayda Xocalıda möhtəşəm quruculuq işləri həyata keçirilib.

Xatırladaq ki, Müzəffər Ali Baş Komandan 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağını qaldırdıqdan sonra burada böyük abadlıq işlərinə də start verilib. Bu qısa zamanda Azərbaycan yalnız öz iqtisadi qüdrəti hesabına Xocalıda yeni və müasir şəhər salıb.

Bu gün isə vaxtilə soyqırımından sağ çıxmış və uzun illər məcburi köçkün həyatı yaşamış sakinlərin Prezident İlham Əliyevin tapşırığına əsasən, yenidən bərpa edilən və tikilən doğma şəhərə qayıdışı davam edir.

Xankəndi şəhərində, Ağdərə və Xocali rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin Xocalı rayonu üzrə əhalinin məskunlaşma şöbəsinin əməkdaşı Elşən Mehrəliyevlə birgə şəhəri gəzib görülən işlərlə tanış oluruq. Elşən Mehrəliyev deyir ki, Xocalıya ilk köç mayın 28-də, Müstəqillik Günündə reallaşıb.

Prezident İlham Əliyev Xocalıya səfəri zamanı yerli sakinlərlə görüş keçirib, onlara mənzillərinin açarlarını təqdim edib. Mayın 28-də Xocalı şəhərinə 20 ailə (81 nəfər) pənah gətirib. Mayın 29-da isə ikinci köç karvanı ilə daha 24 ailə (88 nəfər) Xocalı şəhərinə çatıb. Hazırda Xocalı şəhərinə ümumilikdə 44 ailə (169 nəfər) köçürülüb və proses davam etdiriləcək.

Şəhərdə görülən və nəzərdə tutulan işlərlə bağlı məlumatı "Bakı Abadlıq Xidməti"nin memarı Ahmet Eren Patatoğlundan alırıq. Memar deyir ki, Xocalı şəhəri 1-ci mərhələ üzrə 167 ha və 18 ha ərazi olmaq üzrə 2 hissədən ibarətdir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin verdiyi icazəyə əsasən, 167 ha ərazidə 140 fərdi yaşayış evi, 48 kottec tipli ev və 9 binadan ibarət 110 mənzildə tikinti, təmir-bərpa və abadlıq işləri aparılır.

Bütün kommunikasiya xətləri (qaz, su, işıq, rabitə) yer altına salınıb. İlk 50 ev birləşmələri tamamlanıb. Ümumi şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. 18 ha ərazidə yerləşən 92 ədəd "FİN" tipli evlərdə tikinti, təmir-bərpa və abadlıq işləri aparılır.



Memarın sözlərinə görə, bunlardan əlavə, Xocalı şəhərinin giriş hissəsində yerləşən çay kənarında bulvar ərazisinin salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə bazar yeri qurulur. Xocalı şəhərinin giriş hissəsində iaşə obyektləri (market, çörək sexi, aptek, coffeeshop və s. ) tikilir.

Təhsil Nazirliyi tərəfindən Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası tikilib. Məktəbin qarşısında Xocalı sakinləri üçün park salınıb. Parkın yanında Sənətkarlar məhəlləsi (taxta sexi, duluzçuluq, tikiş sexi, peşə inkişaf mərkəzi, Gilabi ceramic, metal misgərlik və s. ) yaradılıb.

Bununla yanaşı, Xocalı sakinləri üçün idman kompleksində (şahmat, cudo, güləş, gimnastika, stolüstü tennis, basketbol, mini-futbol, fitnes, badminton) tamamlanma işləri aparılır.

Xocalı şəhərində daha 15 çoxmənzilli binada təmir və yenidənqurma işləri aparılıb. Prezident İlham Əliyev mayın 28-də Xocalıya səfəri zamanı burada yaradılan şəraitlə tanış olub. Bura Xocalı şəhərindəki yarımçıq tikili olan yaşayış kompleksidir. Şəhərçik demək olar ki, yenidən əsaslı təmir edilib. Kompleks 3,34 hektar ərazini əhatə edir. Burada hər biri ikigirişli olmaqla üçmərtəbəli 15 binada ikiotaqlı, üçotaqlı və dördotaqlı 180 mənzil var. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, idman meydançası, söhbətgahlar yaradılıb. Hər tərəf asfaltlanıb və kompleks yeni sakinlərinin yolunu gözləyir.



### Xocalıda nələr olacaq?!

Bu il fevralın 26-da Prezident İlham Əliyev Xocalı şəhərinə səfəri zamanı Xocalı Soyqırımı Memorialının təməlini qoyub.

Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədini daşıyır. Memorial müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar, Xocalının coğrafi mövqeyini təsvir etmək məqsədilə rayonun maketi də yer alacaq.

Ziyarətçilər memorialda soyqırımı qurbanlarının və şahidlərinin hekayələri, düşmənlə üz-üzə qalan xocalılıların mərdliyi ilə tanış ola biləcəklər. Bu hekayələr Xocalı soyqırımının miqyasını, faciə qurbanlarının iztirablarını hər bir kəsə ötürərək, Azərbaycan tarixinin ən dəhşətli səhifəsi barədə məlumatları çatdıracaq.

Memorialda həmçinin faciə ilə bağlı sənədli filmlər, Xocalı həqiqətləri barədə videomateriallar nümayiş olunacaq. Eyni zamanda Xocalının işğaldan azad olunması və cinayətkarların cəzalandırılması istiqamətində görülən tədbirlər barədə məlumatlar yer alacaq. Maarifləndirici materiallar, rəqəmsal məzmun vasitəsilə soyqırımı kimi faciələrin səbəbləri, nəticələri, qarşısının alınmasının zərurəti, cəmiyyətin insan haqlarına hörmət etməsinin vacibliyi diqqətə çatdırılacaq.

Bundan başqa, Xocalının Baş planına uyğun olaraq, şəhərdə müxtəlif infrastrukturlar inşa ediləcək.

Xocalı yerləşdiyi coğrafi mövqeyinə görə, Qarabağda bir qovşaq rolunu da oynayır. Ağdam, Əsgəran, Xankəndi və Şuşaya yaxın olan Xocalı regional mərkəz kimi davamlı surətdə inkişaf edəcək.

Belə ki, Xocalını Əsgəranla 5 kilometr, Ağdam şəhərindən isə 10 kilometr ayırır. Xankəndiyə 11 kilometr, Şuşaya isə 7 kilometrdir. Bununla artıq Xocalının gələcəyi özü təbii olaraq şərtləndirilir. Bura regional "hab"a, tranzit nöqtəsinə çevriləcək. Bu, iqtisadiyyatın, iqtisadi fəaliyyətin həm cəmləşdiyi, həm də kənara inkişaf edəcəyi bir məkandır.

Burada həm zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq. Ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər tikiləcək.

Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin memarı olduğu Şanlı Qurtuluşun və Zəfərin yeni ünvanı olan Xocalıda görülən işlər hər kəsdə qürur hissi yaradır. Tezliklə xocalılıların hamısı doğma yurda qayıdaraq yenidən xoşbəxt həyat sürməyə başlayacaqlar, Xocalıda həyat yenidən qaynayacaq.

Elə bu qürurverici xoş ovqatla reportajımızı yekunlaşdırıb, tezliklə Xocalıya yenidən qayıtmaq arzusu ilə Bakıya dönürük.

**Rəşad BAXŞƏLİYEV,**
**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

*Bakı-Xocalı-Bakı*





*(Əvvəli qəzetin 11 və 12 iyun nömrələrində)*






# ADA Universitetində "Məzun günü"







**İyunun 13-də ADA Universitetində "Məzun günü" keçirilib. AZƏRTAC xəbər verir ki, ADA Universitetini bu il bitirən 700-dək məzunun iştirakı ilə keçirilən tədbirə valideynlər, professor-müəllim heyəti, tərəfdaş qurum və şirkətlərin nümayəndələri qatılaraq məzunların sevincinə şərik olublar.**

Tədbir ənənəvi olaraq ADA Universitetinin beynəlmiləl ruhunu əks etdirən bayraq keçidi ilə başlayıb. Keçid zamanı əcnəbi tələbələr təmsil etdikləri ölkələrin bayraqlarını səhnəyə gətiriblər. Daha sonra isə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

ADA Universitetinin məzunları Cavid Şahməmmədli və Könül Əzizli tədbirin aparıcıları qismində qonaqları salamlayıblar. Onlar dinamik, yaddaqalan "ADA həyatı"nın ən maraqlı xatirələrini qonaqlarla bölüşüb, burada aldıqları təhsilin məzunlara qazandırdığı dəyərlərdən bəhs ediblər. Məzunlar həyatlarının yeni qədəm qoyduqları növbəti mərhələsində ADA Universiteti təhsilinin onlara daim bələdçilik edəcəyinə əminliklərini bildiriblər.

Tədbirdə çıxış edən ADA Universitetinin akademik işlər üzrə prorektoru Elkin Nurməmmədov geridə qalan akademik il ərzində tələbə və məzunların uğurlarından bəhs edib: "Cari 2023-2024-cü tədris ili ADA Universiteti üçün xüsusilə əlamətdar olub. Belə ki, bu il ADA Universitetinin biznes proqramları beynəlxalq "ACBSP" akkreditasiyası əldə edib. Bu il həm də ADA Universitetindən ilk ADA Məktəbi məzunlarımızın buraxılış ilidir. Bundan əlavə, ADA Corc Vaşinqton Universiteti ilə birgə təqdim etdiyi ikili magistr proqramı olan "Elektrik və elektroenergetika mühəndisliyi"nin ilk məzun sinfini yola salır. Həmçinin bu il ADA Universitetinin Qazax Mərkəzində Azərbaycan dilində təqdim edilən "Təhsil üzrə menecment" və "Təlim və tədrisin təşkili və metodikası" üzrə proqramların da ilk məzun sinfi yola salınır".

Mərasimin xüsusi qonağı qismində Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev çıxış edərək deyib: "COP29-a evsahibliyi etməyə hazırlaşarkən biz təkcə mühüm danışıqlara kömək etmirik, həm də iqlim liderliyinə sadiqliyimizi nümayiş etdiririk. Bu, atdığımız addımların gələcək nəsillərə fayda verməsini təmin etməkdir. Məzunlar bu mirasın ayrılmaz hissəsidir".

Nazir tələbələrə müraciət edərək bildirib ki, yaşıl dünyanın çempionu olmaq, davamlılığı təşviq etmək, karbon izimizi azaldan təşəbbüslərdə iştirak etmək və başqalarını bu mühüm missiyada sizə qoşulmağa ruhlandırmaq üçün burada, ADA Universitetində əldə edilən bilik və bacarıqlardan istifadə etmək önəmlidir.

Sonda ADA Universitetinin rektoru səfir Hafiz Paşayev çıxış edərək məzunlara cəmiyyətin inkişafına öz bilik və bacarıqları ilə töhfə verməyə, "həyatboyu öyrənmə"ni öz həyat tərzlərinə çevirməyə səsləyib. Builki "Məzun günü"nün əlamətdar bir dövrə - Azərbaycanın COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsinə təsadüf etdiyini bildirən rektor Hafiz Paşayev gənclərə üzünü tutaraq onlara ölkəmizin adını daim ucaltmağı, qələbəmizi öz töhfələri ilə daha da gücləndirməyi, "ADA Universiteti məzunu" adını layiqincə qoruyub saxlamağı və burada qazandıqları dəyərlərə sadiq qalmağı tövsiyə edib.

ADA Universitetinin təhsillə bağlı hazırkı və gələcək planlarına toxunan rektor Hafiz Paşayev ADA İbtidai Məktəbinin təsis olunması xəbərini qonaqlarla bölüşüb.

Mərasimdə həmçinin ADA Universitetinin magistr dərəcəsi üzrə məzunu Leyla Həsənova çıxış edərək məzunları əldə etdikləri bilik və bacarıqları iqlim məsələlərinin həllində tətbiq etməyə səsləyib.

Çıxışlardan sonra diplomların təltifetmə mərasimi olub. Daha sonra isə bədii proqram təqdim olunub. Məzunlar klassik və müasir musiqi sədaları altında bir-birini təbrik edib, xatirə şəkli çəkdiriblər.

Xatırladaq ki, ümumilikdə 2023-2024-cü tədris ili üzrə ADA Universitetindən 453 tələbə bakalavriat və 202 tələbə isə magistratura üzrə məzun olurlar. Bakalavriat və magistratura səviyyələrində təqdim edilən 16 ixtisasdan məzun olan tələbələrin 632-si yerli, 23-ü isə əcnəbidir. Əcnəbi məzunların təmsil etdiyi ölkələr sırasında Belarus, Gürcüstan, İndoneziya, İran, Meksika, Moldova, Mozambik, Özbəkistan, Qazaxıstan, Rusiya Federasiyası, Seyşel Adaları, Sudan, Tacikistan, Ukraynanı qeyd etmək mümkündür.

# Sülhə nail olmaq üçün Ermənistan konstitusiyasına dəyişiklik etməlidir

**"Sülhə böyük ümidlər yarandığı, ABŞ-dən və Avropadan da buna dəstək açıqlamaları gəldiyi vaxtda Ermənistanın absurd davranışlar sərgiləyərək sülhə mane olması təsadüfi deyil. Çünki qərəzli və riyakar addımlar atmaq, sülhü əngəlləmək İrəvanın adətidir. Elə Ermənistan konstitusiyasında sülhə əngəl olan müddəaların çıxarılmaması da bunun sübutudur. Ermənistan işğalçılıq siyasətini, torpaq iddiasını rəsmi təsbit edən müddəaları konstitusiyadan çıxarmaqdan yayınır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Azərbaycan Konstitusiyasında Ermənistanla sülhə əngəl törədəcək heç bir müddəanın olmaması sülh prosesində səmimi olduğumuzun göstəricisidir: "Problem Ermənistan konstitusiyasında, Ermənistan parlamenti tərəfindən qəbul edilən qanunvericilik aktlarındadır. Bu sənədlərdə ölkəmizə qarşı ərazi iddiaları mövcuddur".

Deputat həmçinin qeyd edib ki, Ermənistan rəhbərliyinin Azərbaycan və Ermənistan konstitusiyalarında oxşarlıq yaratmaq cəhdi qəbuledilməzdir: "Çünki Azərbaycan Konstitusiyasında və digər qanunvericilik aktlarında qonşu dövlətlərə və Ermənistana qarşı ərazi iddiaları mövcud deyil. Ona görə də bu mövzuda bütün məsuliyyət və nöqsan birbaşa Ermənistana aiddir. Azərbaycan qanunvericiliyində bu kimi məqamların olmadığını beynəlxalq ictimaiyyət də yaxşı bilir. Odur ki, Ermənistanın guya Azərbaycan Konstitusiyasında da ərazi iddialarının yer alması ilə bağlı absurd açıqlaması heç kəs tərəfindən qəbul edilmir".

Müşfiq Cəfərovun sözlərinə görə, Ermənistan konstitusiyası dünyada analoqu olmayan konstitusiyadır ki, orada başqa dövlətlərə qarşı ərazi iddiasını əks etdirən məqamlar əksini tapıb. "Əgər Ermənistan həqiqətən də sülhdə səmimidirsə, münasibətləri birdəfəlik olaraq normallaşdırmaq istəyirsə, buna əngəl olan bütün maneələri aradan qaldırmalıdır", - deyə müsahibimiz əlavə edib.

Deputat yekunda vurğulayıb ki, əgər Ermənistan qanunvericilikdə Azərbaycana qarşı ərazi iddiasını ləğv etməyəcəksə, deməli, "sülh sazişini imzalamağa hazırıq" kimi bəyanatlarla sadəcə zaman qazanmağa çalışır: "Belə olan halda hətta sülh müqaviləsi imzalansa belə, özlərinə lazım olan vaxt onun Ermənistan konstitusiyasına zidd olduğunu gündəmə gətirib sazişdən imtina edə bilərlər. Ona görə də sülhə nail olmaq üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməlidir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Yeni formalaşdırılmış "Füzuli könüllüləri" qrupu ilə görüş






**İyunun 13-də "Qayıdış Könüllüləri" proqramı çərçivəsində yeni yaradılmış "Füzuli könüllüləri" qrupu ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Gənclər Təşkilatlarının Resurs Mərkəzində keçirilən görüşdə Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ramil Cabbarov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin aparıcı məsləhətçisi Ümid İsazadə və "Böyük Qayıdış" Gənclər Təşkilatının sədri Nail Şükürov iştirak ediblər.

Görüş zamanı "Qayıdış Könüllüləri" proqramı çərçivəsində həyata keçirilən və yaxın gələcəkdə keçirilməsi planlaşdırılan fəaliyyətlər haqqında fikir mübadiləsi aparılıb, könüllülərin təklifləri dinlənilib və sualları cavablandırılıb. Həmçinin könüllülərə bilik və bacarıqlarının artırılmasına, işğaldan azad edilmiş ərazilərdə aktiv fəaliyyətin həyata keçirilməsinə dair tövsiyələr verilib, uğurlar arzulanıb. Bildirilib ki, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə aparılan işlərə gənc nəslin, xüsusilə də kökü bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb edilməsi çağırışına uyğun olaraq həyata keçirilən "Qayıdış Könüllüləri" proqramı çərçivəsində 2024-cü il martın 14-də "Füzuli könüllüləri" qrupuna qəbula start verilib və proqramda təmsil olunmaq üçün 150-dən çox müraciət daxil olub. Müraciəti müsbət dəyərləndirilmiş gənclər ardıcıl olaraq müsahibə, baza təlimləndirmə kursu və imtahan mərhələsindən keçiblər. Könüllülərin hazırlanması üçün baza təlimləri peşəkar təlimçilər tərəfindən "Könüllülük fəaliyyətinin əsasları", "Könüllü xidmətin təşkili", "Gənclərin ideoloji hazırlığı", "Yumşaq bacarıqlar", "Psixoloji inkişaf", "Liderlik və natiqlik bacarıqları" və "Minalardan qorunma qaydaları" mövzularında həyata keçirilib. Təlim və imtahan mərhələlərini müvəffəqiyyətlə başa vuran 25 gənc Füzulidə könüllü olaraq fəaliyyətə başlayıb. Könüllülərin işğaldan azad olunmuş Füzuli şəhərinə ilk səfəri təşkil edilib və şəhərdə Füzuli könüllülərinin təqdimatı keçirilib. Könüllülər yenidən qurulan, həyatın canlandığı Füzuli şəhərinin ərazisini gəzərək aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olublar. Həmçinin könüllülər şəhərdə məskunlaşan uşaq, yeniyetmə və gənclərlə görüşüb, öz təəssüratlarını onlarla bölüşüblər.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən oradan olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etmək və Böyük qayıdış prosesinə töhfə vermək məqsədilə formalaşdırılan "Qayıdış Könüllüləri" proqramı işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq xüsusi nümayəndəliklərinin, Gənclər və İdman Nazirliyinin və Gənclər Fondunun dəstəyi ilə "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən həyata keçirilir. Hazırda proqram çərçivəsində "Şuşa könüllüləri", "Ağdam könüllüləri", "Zəngilan könüllüləri" və "Füzuli könüllüləri" qrupları fəaliyyət göstərirlər. Sözügedən qruplar üzrə fəaliyyət göstərən könüllülər müvafiq ərazilərdə müxtəlif tədbirlərə cəlb olunurlar. Növbəti mərhələdə digər işğaldan azad olunmuş inzibati ərazi vahidlərinə uyğun olaraq könüllü qruplarının yaradılması nəzərdə tutulub.

"Füzuli könüllüləri" qrupunun üzvü Fidan Quluzadə AZƏRTAC-a müsahibəsində öz fəaliyyəti və təəssüratları barədə danışıb: "Bu günə qədər könüllü şəkildə etdiyim hər bir iş mənim üçün çox dəyərlidir. Hazırda tələbəyəm. Bizim könüllülük fəaliyyətimiz öz doğma torpaqlarımıza olan sevgimizin, bağlılığımızın göstəricisidir. Mən inanıram ki, ümumiyyətlə, könüllü gənclərin bu cür motivasiyası ölkəmizin inkişafına böyük töhfələr verir və gələcəkdə də verəcək. Füzuli rayonuna ilk səfərim və oradakı təəssüratım çox önəmlidir. Dağıntılar arasında yenidənqurma prosesinin başlanması və həmin yerlərə həyatın qaytarılması çox gözəl bir hadisədir. Təhsilim bitdikdən sonra doğma torpaqlara qayıtmaq və orada fəaliyyət göstərmək mənim ümdə arzularımdandır. Mənim atam hərbçi, anam isə müəllimdir. Onların üzərimdə böyük əməyi var. Məhz buna görə mənim bu yolda böyük uğurlarım var".

# İrəvanda insan haqları kobud şəkildə pozulur

## Polisin işgəncəsi və zorakılığı nəticəsində etirazlarda xəsarət alanların sayı artmaqdadır












**Hayastanda baş verən son proseslər erməni cəmiyyətində artıq yeni qarşıdurma mərhələsinin başlandığını göstərir. Baş nazir Nikol Paşinyan dövlət çevrilişi təhlükəsinin getdikcə daha da artdığının fərqindədir. Ona görə də, o, əlində olan bütün inzibati müqavimət resurslarını hərəkətə gətirib və revanşistlərin ölkədə hakimiyyəti dəyişə bilməyəcəyini bildirib: "Mən feodal-klerikal elitaya səslənirəm. Siz Hayastanda hakimiyyət dəyişikliyini həyata keçirə bilməyəcəksiniz. Çünki siz artıq çox gücsüzsünüz".**

Erməni kilsəsi və keçmiş hərbi xunta təmsilçiləri Paşinyan hakimiyyətini açıq təxribatlara çəkməyə çalışır. Keşiş Baqrat Qalstanyanın dəstəsi polis qüvvələri ilə aksiyaçılar arasında küçə toqquşmalarına nail olub. Bu baxımdan, siyasi böhran indi tədricən küçə iğtişaşları mərhələsinə keçməyə doğru yönəlib.

Qırmızı və qara "beretli"lər ayrı-ayrı polis bölməsində xidmət edən hüquq mühafizəçilərdən fərqli olaraq aksiyaçılara qarşı kobud və qeyri-insani davranış sərgiləyirlər. Zorakılıq nümayiş edən "beretlilər"in forması altında əslində hökumətyönlü tanınmış oliqarxların cangüdənlərinin gizləndiyi barədə şübhələr var.

Dünəndən etibarən isə paytaxt sakinləri üçün güllə səsləri adi hala çevrilib. Polisin işgəncəsi və zorakılığı nəticəsində etirazlarda xəsarət alanların sayı artmaqdadır.

Xəsarət alanlardan biri 38 yaşlı Naum Levonisyanın yaxınları bildiriblər ki, üç polis əməkdaşı axşam saatlarında yaşadıqları evə girərək heç bir səbəb gətirmədən bölməyə getməli olduğunu deyiblər. Polislər zor tətbiq edərək uşaqların gözü qarşısında onun qollarını qandallayıb bölməyə aparıblar. Hələ də Levonisyandan xəbər yoxdur.

Dünən də İrəvanda etiraz aksiyasında cinayət törətməkdə şübhəli bilinərək saxlanılanların sayı 28 nəfəri ötüb. Məlumata görə, saxlanılanlar paytaxtın müxtəlif polis bölmələrindədirlər. Həmçinin onların arasında Aqarsin məbədinin keşişi Samvel Mxitaryan da var. Eyni zamanda etiraz hərəkatının aktiv iştirakçısı olan Suren Petrosyan da axtarışdadır.

Göründüyü kimi, Nikol Paşinyan hakimiyyəti özünü "demokratik hakimiyyət" kimi təbliğ etsə də, ölkədə insan hüquqları sahəsində yaşanan problemlərin miqyası sürətlə genişlənməkdə, vəziyyət ifrat həddə pisləşməkdədir. Hakimiyyətin öz maraqlarını təmin etmək məqsədilə həmişə repressiv metodlardan istifadə etməsi iqtidara qarşı etirazları bir qədər də artırıb. Amma iqtidar mənsubları hələ də buna əhəmiyyət verməyərək rəqib və təhlükə saydıqları qüvvələri ən sərt üsullarla neytrallışdırmağa çalışıblar.

Hayastanın "4rd.am" saytı yazır: "Ölkəmiz müharibədəki məğlubiyyət və sülh müqaviləsinin yubadılması fonunda cəhənnəmə çevrilib. Həm kəndlərdə, həm də şəhərlərdə əhalinin 98 faizi yoxsulluq içərisində yaşayır. Ölkə rəhbərliyində xalqı fəlakətə sürükləyən oğrular, fırıldaqçılar əyləşib. Bu, sadəcə, sözlər deyil".

Qeyd olunur ki, Hayastanda polis və məhkəmələr təzyiq alətinə çevrilib. Onlar öz xalqına qarşı Stalin KQB-sindən daha qəddardırlar. Stalin insanları Yakutsk, Sibir, Altaya zorla sürgün edirdi. Amma keçmiş və indiki hakimiyyət insanları o həddə çatdırıb ki, artıq onlar əsir düşərgələrində əziyyət çəkən babalarının yerlərinə könüllü gedirlər.

Ümumiyyətlə, etiraz aksiyaları ətrafında baş verən proseslər insan haqlarının pozulması, qanunsuz həbslər, məhkəmələrin sifariş əsasında hökmlər çıxarması və bu qəbildən olan digər hadisələr indi Hayastanı xarakterizə edən əsas hallardan sayılır. Beynəlxalq miqyasda müxtəlif təşkilatlar, insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar niyə ikili standartlardan çıxış edərək Hayastandakı mülki şəxslərə qarşı qəddar davranışa göz yumurlar? Qərb institutları bu xüsusda İrəvana niyə irad tutmurlar?

Göründüyü kimi, Hayastan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Bütövlükdə, proseslərin gedişi İrəvanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Bakı Təşəbbüs Qrupunun addımları təqdir edilir

### Bu, xalqların azadlığını müdafiə edən mühüm platformadır

**"XXI əsrdə kolonial sistemin saxlanması bəşəriyyət üçün həqarət doğuran bir hadisədir. Xüsusilə o dövlətlər ki, bu gün qlobal məkanda insan haqları, demokratik ideallar, azadlıqlar, bərabərlik, təhlükəsizlik məsələlərini guya təşviq və təbliğ edirlər, əvəzində müxtəlif qitələrdə həyata keçirdikləri siyasət nəinki ayrıca fərdlərin və ya kiçik sosial qrupların, bütövlükdə xalqların, ən sonda dövlətlərin istismarı, istibdadı, sümürülməsi üzərində qurulub".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib. Komitə sədri bildirib ki, Azərbaycanın belə siyasətə baxışının məhz Vətən müharibəsindəki qələbədən sonra daha sistemli, strateji yol alması, bu yöndə addımların atılması da təbiidir: "Bir sıra qüvvələr nə üçün bunu 2015, 2017-ci illərdə indiki kimi fəal şəkildə gündəmə gətirmirdi deyə haqsız və əsassız mövqedə dayanırlar. Ona görə ki, prinsipial xəttimiz dünyada hər cür təcavüzkarlığın aradan qaldırılması üçün idi və bunun tərkib hissəsi kimi öz hüquqlarımız uğrunda mübarizə aparırdıq. Ermənistanın işğalı, əslində, qlobal despotçu qüvvələrin siyasətinin bir parçası kimi görünürdü".

Zahid Oruc qeyd edib ki, dənizaşırı ölkələrdə, xüsusilə Sakit və Hind okeanı ərazilərində uzun əsrlərdir o xalqlara azadlıq verməyən, əvəzində müxtəlif saxta hüquqlar müəyyənləşdirən, onun həyata keçirilməsi zamanı azadlıqsevərlərin səsini sərt şəkildə boğan, onları qətlə yetirən davranışları görməkdəyik: "Bakı Təşəbbüs Qrupu mühüm platforma kimi Prezident İlham Əliyevin çağırışı ilə və Qoşulmama Hərəkatının Bakıda keçirilmiş tədbirlərindən sonra gerçəkləşdi. Bu, dünya miqyasında alqışlanacaq bir hadisədir. Biz çox arzulayırıq ki, Türk Dövlətləri Təşkilatı da bu addımları daha geniş müstəvidə müdafiə etsin, ona dəstək versin, həm informasiya, həm siyasi, həm də maddi köməkliklər göstərsin. Yeni Kaledoniya, Polineziya, Korsika və digər ada dövlətləri - Fransanın ildə 500 milyarda yaxın köləlik vergisi təyin etdiyi bu ərazilərdə zahirən demokratik, əslində isə, istibdad rejiminin çökməsi üçün addımlar atılmalıdır. Təkcə 25 il ərzində 30-dan artıq ərazidə, xüsusilə Afrika qitəsində baş verən çevrilişlərin əsasında məhz Fransanın qurduğu üsul, rejim, xalqa tutulan divanlar dayanır".

Komitə sədri bildirib ki, Azərbaycan bu məsələyə Prezident İlham Əliyevin liderliyi altında dəfələrlə açıq şəkildə münasibətini bildirib. Ölkə rəhbərinin buna dair açıqlamaları, çağırışları, çıxışları onun sübutudur



ki, Azərbaycan təkcə Fransanın deyil, başqa dövlətlərin də bu yöndə siyasətini pisləyir: "Amma təəssüflər olsun ki, rəsmi Parisin siyasətindən baxdığımızda görürük ki, onlar bütöv Cənubi Qafqazı öz müstəmləkəsinə çevirmək niyyətində addımlar atırlar. Ermənistan Fransa üçün bir Kaledoniyadır. Onlar düşünürlər ki, bu dövlət üzərindən regionu təbəəsinə çevirəcək, regionun iqtisadi sərvətlərinə əl qoyacaq və sonrakı dövrdə burada da Fransayönümlü hakimiyyət quraraq, istədikləri kimi idarə edəcəklər".

Bakı Təşəbbüs Qrupunda kifayət qədər qabiliyyətli, istedadlı insanların cəmləşdiyini vurğulayan komitə sədri bildirib ki, burada əsarətdə olan xalqlarla işləməyi bacaran, siyasi, mənəvi dəstək ortaya qoyan və beynəlxalq hüquq prinsiplərinə görə doğru-düzgün addım atan bir siyasət yürüdülür. 44 günlük Vətən müharibəsindən 10 gün keçməmiş Fransa Senatı Qarabağın müstəqilliyini tanıyan akt, qərarlar çıxarmışdı. İndi axı Azərbaycan onların etdiklərinin təkrarını etmir. Azərbaycanın bu gün Kaledoniya, Polineziya və digər ərazilərlə bağlı həyata keçirdiyi sırf mənəvi, siyasi dəstəkdir.

Z.Oruc düşünür ki, bu yöndə tədbirlər mahiyyət etibarilə Azərbaycanın iradəsini sübut edir: "Ümidvarıq ki, kolonial sistem çökəcək və o xalqlar öz azadlıqlarına qovuşacaqlar. Bəzən Azərbaycan bayrağını hansısa məkanlarda qaldıranlar deyirlər ki, bu bizi Fransa ilə üz-üzə gətirəcək. Hesab edirəm ki, bütün bunlar mənəvi məsələlərdir. Onların daxili işlər naziri deyir ki, hansısa açıq platformalarda və digər yerlərdə Bakıdan kimlərsə müstəmləkə altında olan xalqlara dəstək məqsədilə paylaşımlar edirlər. Bəs Fransa mənəvi, siyasi, media fəaliyyətində daha geniş azadlıqların, müstəqilliyin bərqərar olunması tələbi ilə çıxış edirsə, niyə bir neçə yüz insanın paylaşımlarına dözüm göstərmək istəmir?"

Komitə sədri deyib ki, Bakı Təşəbbüs Qrupu beynəlxalq məkanda dünya xalqlarının azadlığını müdafiə edən platforma kimi alqışa layiqdir. Onların bu mövqeyi təqdir edilir. Kaledoniya və digər ərazilərdə informasiya məkanına çıxışın dayandırılması pislənməli və həmin xalqları dəstəkləməyə davam edilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa neokolonial siyasətini dayandırmalı və kanak xalqının azadlığını təmin etməlidir

### "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" - hibrid formatda tədbir keçirilib

**Afrikanın müxtəlif ölkələrindən olan bir qrup jurnalist, tanınmış bloger və vətəndaş cəmiyyəti fəalları, eləcə də Yeni kaledoniyalı jurnalistlərin iştirakı ilə iyunun 13-də "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda hibrid formatda dəyirmi masa müzakirələri və mətbuat konfransı təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, iki paneldən ibarət dəyirmi masa müzakirələri beynəlxalq təhlükəsizlik, diplomatiya, effektiv kommunikasiyaların rolu və dekolonizasiya, həmçinin bu günədək müasir dünyada müstəmləkəçilik nümunəsi kimi Yeni Kaledoniya mövzularına həsr olunub.

Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov bildirib ki, Fransa hökumətinin bu yaxınlarda Yeni Kaledoniyada əsas insan haqlarını pozması Paris hökumətinin BMT Baş Assambleyasının xarici ölkələrin müstəmləkəsizləşdirilməsinə dair qətnamələrini yerinə yetirmək üçün siyasi iradəyə malik olmadığının daha bir sübutudur.

A.Abbasov bildirib ki, öz müqəddəratını təyinetmə hüququ fundamentaldır və Bakı Təşəbbüs Qrupu xalqının daha yaxşı, ləyaqətli gələcəyi üçün çalışanları dəstəkləyir.

"Bakı Təşəbbüs Qrupu kanak xalqının müstəqilliyi uğrunda mübarizəsini dəstəkləməyə davam edəcək. Biz kanak xalqı ilə tam həmrəy olduğumuzu bildirir və onların seçicilərin sıralarının genişlənməsinə qarşı ədalətli mübarizəsini dəstəkləyirik, həmçinin Fransa hakimiyyəti tərəfindən təklif olunan düzəlişlərin ləğvini tələb edirik. Biz Fransanı neokolonial siyasətini dayandırmağa və kanak xalqının öz müqəddəratını təyin etmək azadlığını təmin etməyə çağırırıq", - deyə A.Abbasov bildirib.

Diqqətə çatdırılıb ki, konfransın məqsədi Yeni Kaledoniyada və Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq pozuntularına dünya ictimaiyyətinin diqqətini çəkmək, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi - neokolonializmlə mübarizə istiqamətində



kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasını müzakirə etməkdir.

Qeyd edək ki, tədbirdə Fransa təhlükəsizlik qüvvələrinin Yeni Kaledoniyada yerli kanak xalqının dinc etiraz aksiyasına zorakılıqlarla cavab verməsi və bunun nəticəsində 10-dan çox mülki şəxsin öldürülməsi, yüzlərlə insanın yaralanması və həbs edilməsi məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır.

Belə ki, Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir. Fransa polisi və jandarma qüvvələri tərəfindən törədilən vəhşiliklərin dünya ictimaiyyətindən gizlədilməsi məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. İnformasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün Bakı Təşəbbüs Qrupu hibrid mətbuat konfransı təşkil edib.

Yeni Kaledoniyanın Xarici məsələlər üzrə daimi müvəkkili Mikael Forrest qeyd edib ki, Yeni Kaledoniya siyasi səviyyədə çox kritik bir dövr yaşayır. Belə ki, Fransanın ölkəni yenidən remilitarizasiyası səbəbindən Yeni Kaledoniyanın əhalisinə psixoloji və sosial baxımdan mənfi təsir göstərir. "Bizim kimi kiçik, müstəmləkə keçmişi olan xalqlar üçün özümüz haqqında danışa bilmək, kim olduğumuzu, vəziyyətimizin necə olduğunu söyləmək həmişə vacibdir. Ümumiyyətlə, biz Fransanın müstəmləkəyə çevirdiyi əraziyik", - deyən M.Forrest Fransanın Yeni Kaledoniyaya qarşı həyata keçirdiyi müstəmləkə siyasəti və cinayətləri barədə məlumat verib, ölkəsinin müstəqillik uğrunda apardığı mübarizəsindən, bu yolda Fransanın törətdiyi maneələrdən, aparılan danışıqları və nizamlanma prosesini bloklamasından danışıb.

Fransa Qvianasının sosial azadlığı və dekolonizasiyası naminə Hərəkatının üzvü Moris Pindar deyib ki, hazırda Fransanın kolonizasiya siyasəti davam edir. "Müstəmləkə keçmişinə malik Fransa qanlı müstəmləkə cinayətlərini və soyqırımı aktlarını bu gün də törətməkdə davam edir. Hazırda bütün dünyaya postmüstəmləkə dövrü barədə car çəksə də, Fransanın neokolonializm siyasəti hələ də davam edir. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etmir", - deyə o bildirib.

Diqqətə çatdırılıb ki, Fransanın müstəmləkə siyasəti müxtəlif ərazilərdə təbii sərvətlərin talanması, istismar, zorakılıq və ətraf mühitin deqradasiyası ilə müşayiət olunur və tarixin qaranlıq bir səhifəsini təşkil edir.

"Bizə dəstəyinə görə Azərbaycana, Bakı Təşəbbüs Qrupuna təşəkkür edirəm. Qoşulmama Hərəkatına üzv olan və olmayan ölkələrdən dəstək istəyirik", - deyə M.Pindar əlavə edib.

Sonda tədbir iştirakçıları Azərbaycan media nümayəndələrinin suallarını cavablandırıblar. Bildirilib ki, Fransa Yeni Kaledoniyada media nümayəndələrinin də hüquqlarını məhdudlaşdırıb. Belə ki, ölkədə söz azadlığı və azad jurnalistika fəaliyyətinin qarşısı alınır. Öz növbəsində, tədbir iştirakçısı keniyalı Timothy Hinga da bildirib ki, ölkəsində media azadlığı yoxdur.

Panel müzakirələrdə Azərbaycan, Yeni Kaledoniya, Burundi və Afrikanın digər ölkələrindən nümayəndələr iştirak ediblər.

## Makronun aqibəti tezliklə bəlli olacaq

### Fransa Avropa İttifaqında sabitliyi poza bilər






**Emmanuel Makronun Fransa Milli Assambleyasını buraxmaq qərarı Brüsseldə çaşqınlığa səbəb olub. Avropa İttifaqı qurumları üçün qeyri-müəyyənlik və yenidən qruplaşma dövrü başlayır.**

Fransa Prezidenti bir tərəfdən partiyasının Avropa seçkilərində məğlub olması ilə zəifləyib, digər tərəfdən, gələn ay erkən qanunvericilik seçkilərində millətçilər qalib gələrsə, o, hakimiyyətin bölüşdürülməsi məsələsini müzakirə etməyə məcbur ola bilər. Nəticədə Fransanın və onun liderinin səsi böyük ehtimalla Avropa İttifaqında və dünyada daha az eşidiləcək. Fransa Prezidentinin hazırkı müxalifətlə tərəfdaşlıq müqaviləsi bağlayacağı halda Avropa qanunvericiliyinin inkişafına təsirini itirmək riski ilə üzləşəcəyi qaçılmaz olacaq.

Avropa Siyasəti Mərkəzindən bildirilir ki, əgər Makron daxili-siyasi işlərlə məşğul olarsa və Jordan Bardella Fransa adından baş nazir kimi çıxış edərsə, Avropa İttifaqında çətinliklər yarana bilər.

#### Jordan Bardella kimdir?

Millətçi Milli Birlik Partiyasının lideri Jordan Bardella son Avropa seçkilərində Prezident Emmanuel Makronun mərkəzçi ittifaqından iki dəfə çox səs toplayaraq əhəmiyyətli uğur qazanıb.

Jordan Bardella 1995-ci ildə Paris yaxınlığında Dransi qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, IV Paris - Sorbonna Universitetinə daxil olub və orada coğrafiya üzrə təhsil alıb. Amma artıq üçüncü kursda Bardella özünü siyasətə həsr etmək üçün ali məktəbi tərk edib.

Gələcək siyasətçi 16 yaşında millətçi "Milli Cəbhə"yə qoşulub. 2018-ci ilin yazında Bardella partiyanın gənclər təşkilatına rəhbərlik edib. O, bir neçə il bu vəzifədə çalışıb. 2018-ci il iyunun 1-də partiyanın Milli Şurasının nümayəndələrinin əksəriyyəti onun Milli Birlik adlandırılmasına səs verib.

2019-cu ilin yazında Avropa Parlamentinə keçirilən seçkilərdə siyahısına Jordan Bardellanın başçılıq etdiyi partiya 23,34 faiz səs və Fransaya ayrılan 79 yerdən 22-ni alaraq birinci yeri tutub. 23 yaşında Bardella Avropa Parlamentinin üzvü olub. Elə həmin il partiyanın İcraiyyə Bürosuna daxil olub və ikinci sədr vəzifəsini tutub. 2022-ci ilin noyabrında Marin Le Pendən sonra Milli Birliyin prezidenti seçilib.

Bardella Le Pen ailəsinin üzvü olmayan antimiqrant Milli Birlik partiyasına rəhbərlik edən ilk şəxsdir. Lakin 2020-ci ildən o, partiyanın təsisçisi Jan-Mari Le Penin nəvəsi və Marin Le Penin qardaşı qızı Nolven Olivye ilə görüşüb. Cütlük Avropa seçkilərinə cəmi bir neçə gün qalmış ayrılıb. Parlamentdə Marin Le Pen partiyasının lideri olaraq qalır və 2027-ci ildə yenidən prezidentliyə namizəd olacağı gözlənilir.

Avropa seçki kampaniyası zamanı MB-nin aparıcı namizədi Jordan Bardella milli sərhəd nəzarətinin tətbiqi vasitəsilə miqrantların sərbəst hərəkətinin məhdudlaşdırılmasını müdafiə edib.

Televiziya debatları zamanı Bardella Aİ-ni bitirmək istəməkdə günahlandırılıb. Lakin o, "Mən Avropanın əleyhinə deyiləm, Avropanın işinin əleyhinəyəm" deyib.

#### Makronun prezidentlik müddətini başa vurub-vurmayacağı tezliklə məlum olacaq

Avropa Komissiyasının növbəti sədrinin və Aİ Şurasının rəhbərinin təyin edilməsi ilə bağlı rəsmi danışıqlar gələn həftə başlayacaq. İttifaqın ən böyük və ən güclü ölkələri olan Fransa və Almaniya bu vəzifələrə namizədlərin təsdiqində ağır çəkiyə sahib olmağa adət ediblər. İndi bu vəziyyət dəyişə bilər.

Önəmli iki ölkənin liderləri - Almaniya kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makron Avropa seçkilərindən zəifləmiş halda çıxırlar. Lakin bu, Polşa, İtaliya və İspaniya kimi digər böyük ölkələrin liderlərinə daha çox manevretmə imkanı verə bilər.

Fransada növbədənkənar parlament seçkilərinin birinci turu iyunun 30-na təyin edilib. İkinci tur iyulun 7-nə təyin olunub. Onlar bütün Avropa İttifaqında yaxından izləniləcək. Beləliklə, bir aydan az müddətdə "İntibah" partiyasının aqibəti və Makronun prezidentlik müddətini başa vurub-vurmayacağı məlum olacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Müstəmləkəçi Fransa söz azadlığına da qarşı çıxır

**Müstəmləkəçi Fransa Afrikadan artıq qovulur, güc yolu ilə əlində saxlamağa çalışdığı digər koloniyalarından da tezliklə çıxarılacağı şübhəsizdir. Son zamanlar dənizaşırı ərazilərdə Fransa əsarətindən qurtulmaq üçün azadlıq mübarizəsinə qalxan yerli xalqların müstəqillik tələblərində israrlı olmaları da bunu deməyə əsas verir.**

Azərbaycanın beynəlxalq platformalarda Fransanın çirkin müstəmləkə siyasətini ifşa etməsi isə Parisi çıxılmaz vəziyyətə salıb. Ölkəmizin qarşısında gücsüz qalan Makron hakimiyyəti mediamızı hədəf götürməyə çalışır, jurnalistlərimizin peşə fəaliyyətlərini sərbəst şəkildə həyata keçirmələrinin qarşısını almaq üçün müxtəlif qanunsuz yollara baş vurur.

#### Azərbaycana qarşı növbəti qərəz

Özünü insan hüquqlarının keşikçisi sayan, dünyaya demokratiya dərsi vermək iddiasında olan, azad sözdən dəm vuran Fransanın Azərbaycan Dövlət İnformasiya Agentliyinin əməkdaşı Aygün Həsənovanın Almaniyanın Bonn şəhərində keçirilən seminarda iştirakına yol verməmək, onun Şengen ərazisinə girişinin qarşısını almaq yönümlü hərəkətləri də göstərir ki, Makron hakimiyyəti Azərbaycan mediasını hədəf seçib.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirə dünyanın bir çox ölkəsindən olan jurnalistlər dəvət ediliblər. Həmçinin azərbaycanlı jurnalistin də toplantıda iştirakı əvvəlcədən müəyyənləşdirilib və bu məqsədlə bütün zəruri prosedurlar yerinə yetirilib. Jurnalistin çoxgirişli Şengen vizası, seminara dəvəti və digər sənədlər qaydasında olub. Almaniyanın rəsmi qurumları da Fransanın tələbinin əsassız olduğunu görüblər və jurnalistin ölkəyə daxil olmasına icazə verilib.

Fransa bu davranışı ilə söz və ifadə azadlığını məhdudlaşdırmaq niyyətində olduğunu, media dəyərlərini heçə saydığını, bir sözlə, demokratik dəyərləri ayaqlar altına atdığını ortaya qoydu. Onsuz da Fransanın KİV-i qərəz alətinə çevirməsi də çoxdan bəllidir. Vətən müharibəsindən, eləcə də antiterror tədbirlərindən sonra Fransa tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasında da mediadan gen-bol faydalanmışdılar.

Jurnalistimizə qarşı sərgilənən bu qanunsuz davranış fonunda Fransanın Azərbaycana birbaşa qərəzi açıq şəkildə görünür.

Xatırladaq ki, ötən ilin dekabrında AZƏRTAC-ın Yeni Kaledoniyaya ezam olunmuş adıçəkilən əməkdaşının vizası olduğu halda həmin ölkəyə girişinə də Fransa tərəfindən qadağa qoyulmuşdu. O zaman jurnalist bir sutka polis bölməsində saxlanılmış, "arzuolunmaz şəxs" kimi ölkədən çıxarılmışdı.

Heç şübhəsiz, məhz Azərbaycandan gəldiyi üçün jurnalistin ölkəyə girişinə icazə verilməmişdi. Çünki Fransa dövləti Yeni Kaledoniya və Fransanın digər koloniyalarında getdikcə güclənən azadlıq və müstəqillik uğrunda mübarizə barədə həqiqətlərin yayılmasını istəmir. Buna görə də qanunsuz yollarla jurnalistlərə əngəl yaratmağa çalışır.

#### Media Fransa müstəmləkəçiliyinə qarşı

Göründüyü kimi, müstəmləkəçilik siyasətindən əl çəkmək əvəzinə Fransa onun mənfur üzünü açıb göstərənlərə qarşı aqressiya sərgiləyir, təzyiq, təhdid mexanizmlərindən istifadə edir, müxtəlif çirkin yollarla azad sözü boğmağa çalışır, media ilə düşmənçilik aparır.

Azərbaycan isə bu dəyərləri heçə sayanlara qarşı daim mübarizə aparır. Fransa müstəmləkəsi altındakı xalqların azadlıq səsini dünyaya çatdırması da buna nümunədir.

Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir. Fransa polisi və jandarma qüvvələri tərəfindən törədilən vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. Buna görə də Bakı Təşəbbüs Qrupu informasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün ötən gün hibrid mətbuat konfransı təşkil edib. Yeni Kaledoniyada və Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq pozuntularına media vasitəsilə dünya ictimaiyyətinin diqqətini çəkib, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi - neokolonializmlə mübarizə istiqamətində kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasını müzakirə edib.

Fransa beynəlxalq hüququ tapdalamaqla bərabər, söz azadlığını da boğmağa çalışır, müstəmləkə siyasətini davam etdirmək üçün Azərbaycanın timsalında onun çirkin simasını ifşa edənlərə qarşı qərəzli mövqe tutur. Azərbaycan isə azad sözə meydan verir. Bakı Təşəbbüs Qrupunun yuxarıda sözügedən mətbuat konfransını təşkil etməsi də buna nümunədir.

Neokolonialist ölkə isə bu davranışları ilə heç nəyə nail ola bilməyəcək və tezliklə müstəmləkə altında saxladığı bütün ərazilərdən qovulacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 5 ayda ÜDM istehsalı 4,2 faiz artıb

**Cari ilin yanvar-may aylarında ölkədə 48026,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, ötən ilin yanvar-may ayları ilə müqayisədə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər istehsalı 7,3 faiz artmış, neft-qaz sektorunda isə eyni səviyyədə qalmışdır.

ÜDM istehsalının 39,7 faizi sənaye, 9,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,0 faizi tikinti, 3,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 20,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 4713,3 manata bərabər olmuşdur.

## Əsas kapitala 6,6 milyard manat investisiya yönəldilib

**5 ay ərzində əsas kapitala 6 milyard 640,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,0 faiz çox investisiya yönəldilmişdir.**

DSK xəbər verir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,2 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 12,1 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 3623,3 milyon manatı və ya 54,6 faizi məhsul istehsalı, 2379,1 milyon manatı (35,8 faizi) xidmət sahələrinə, 638,5 milyon manatı (9,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 5 milyard 386,9 milyon manatını və ya 81,1 faizini daxili investisiyalar təşkil etmişdir. Onun 4 milyard 644,0 milyon manatı və ya 69,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## DOST mərkəzlərində 324 min vətəndaşa xidmət göstərilib

**Bu ilin yanvar-may aylarında DOST mərkəzlərində 324 min vətəndaşa xidmət göstərilib.**

2019-cu ilin may ayından ölkəmizdə artıq 7 DOST mərkəzi açılıb. Həmin mərkəzlərdə 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir.

DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,2 faiz təşkil edir.

**Prezident İlham Əliyevin Qarabağı və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonası elan etməsi bu diyarların həmin sahədəki potensialından səmərəli istifadə olunması üçün geniş perspektivlər açır. Konkret olaraq Naxçıvan MR-in 5 QVt "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib.**



## Naxçıvanda da enerjinin rəngi dəyişəcək

### Muxtar respublikanın bərpaolunan enerji potensialı 5 QVt-dır

Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir. İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan bu forum iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini qarşıya qoyur. Növbəti dəfə - 2022-ci ildə Türkiyədə keçirilən foruma üçüncü dəfə keçən ilin payızında Naxçıvan evsahibliyi etdi. Bu mühüm tədbir regionun "yaşıl enerji" mənbələrini bir daha təhlil etmək, qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsinə nail olmaq baxımından böyük rol oynayır.

Xatırladaq ki, 2023-cü il sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak edərkən dövlətimizin başçısı demişdir: "Bir neçə gündən sonra, daha doğrusu, üç gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir və əminəm ki, bu forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş-elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji" zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su-elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da mümkün olacaqdır".

Bu görüşdə "Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" da imzalandı. Beləliklə, Azərbaycan və Türkiyə arasında enerji sahəsinin daha da inkişaf etdirilməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının da "yaşıl enerji" dəhlizi üçün əhəmiyyəti bir daha ortaya qoyuldu.

Məhz Azərbaycan-Türkiyə III Enerji Forumunda vurğulandı ki, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq Naxçıvanı "yaşıl enerji"nin istehsalçısı, ixracatçısı mənbəyinə və tranzit məkanına çevirəcək. Bu xüsusda "yaşıl enerji" layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırıldı.

Yekunda isə "Azərbaycan-Türkiyə III Enerji Forumunun Protokolu", həmçinin "Naxçıvan üzərindən "Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə" layihəsinin icrası ilə əlaqədar 2023-2025-ci illərdə "TEİAŞ" və "Azərenerji" ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "A-Z Czech Engineering" MMC arasında Azərbaycan Respublikası ərazisində bərpaolunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş-elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "ACWA Power" şirkəti arasında Batareya Enerji Saxlama Sistemi (BESS) layihəsi və 200 MVt quruda külək layihəsi üçün tədbirlər təqvimi (Yol xəritəsi)" imzalandı.

Təsadüfi deyil ki, bu ayın əvvəlində keçirilən Bakı Enerji Həftəsində də həmin mövzuya geniş toxunuldu.

Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar tədbirin açılış mərasimindəki çıxışında dedi: "Biz Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Məqsədimiz burada - Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı enerji bağlantısı imkanlarını artırmaqdır. Bu investisiyaların yekunlaşdırılması ilə daha çox yeni "yaşıl enerji"ni təmin edə və bunları Türkiyə bazarına nəql edə bilərik. Çıxışımı yekunlaşdırmazdan əvvəl bildirmək istəyirəm ki, Türkiyə bu istiqamətdə enerji layihələrinin regionda əsas vasitəçisi kimi çıxış edir. Belə ki, Türkiyə Şərq ilə Qərb arasında unikal mövqedə yerləşir. Düşünürəm ki, regional əməkdaşlığı daha da təşviq etməklə, enerji təhlükəsizliyini prioritet kimi görməklə biz dayanıqlı və dinamik enerji landşaftı qura bilərik ki, bu da gələcək nəsillərə xidmət edə bilər".

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) direktor müavini Kamran Hüseynov Bakı Enerji Həftəsinin Forum hissəsindəki çıxışında bildirdi ki, Naxçıvandan, əsasən yeni günəş-elektrik stansiyalarından (GES) Türkiyəyə və sonra da ola bilsin ki, Avropaya elektrik enerjisi ixrac etmək planlaşdırılır. Energetika Nazirliyi Naxçıvan MR-də bərpaolunan enerji mənbələrinin yaradılmasına xarici şirkətləri cəlb edir. Xüsusən "TotalEnergies" və "Nobel Energy" şirkətləri Naxçıvanda ümumi gücü 650 MVt olan GES, "Masdar" (BƏƏ) - 150 MVt gücündə GES, Almaniyanın "Notus" şirkəti Naxçıvanın şimal-qərbində 70 MVt gücündə GES layihələrini elan ediblər. Digər layihələr də öyrənilir.

*Flora SADIQLI, "Azərbaycan"*

## DVX Ağdamda yerli sahibkarlarla görüş keçirib

**Dövlət Vergi Xidmətinin (DVX) Qarabağ Ərazi Vergilər Baş İdarəsi Ağdamın Quzanlı qəsəbəsində rayonda sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirib.**

Müxtəlif sahələrdə fəaliyyət göstərən 70-dən çox mikro və kiçik sahibkarlıq subyektinin qatıldığı görüşdə vergi ödəyicilərinin dövlət qeydiyyatı və uçotu ilə bağlı məsələlər, təsərrüfat subyektlərinin (obyektlərinin) və uçot vahidlərinin (NKA, POS-terminal və s.) uçotuna dair tələblər, vergi ödəyicilərinə göstərilən xidmətlər və işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan vergitutmanın xüsusiyyətləri barədə məlumat verilib.

Bildirilib ki, hazırda Qarabağ Ərazi Vergilər Baş İdarəsi üzrə 24 mindən çox vergi ödəyicisi mövcuddur. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafının, etibarlı və müasir vergi ekosisteminin formalaşmasının DVX-nin gələcəyə baxışının əsasını təşkil etdiyi diqqətə çatdırılıb.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov görüşü yüksək qiymətləndirib, sahibkarlar üçün faydalı olacağını vurğulayıb.

Sonda müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



## İqtisadi yüksəlişdə özəl sektorun özəl payı

### İslahatlar hesabına bu payın həcmi ilbəil artır

**Bir siyasi formasiyadan digərinə keçid həmişə ağrılı olur. Biz bunu ötən əsrin 90-cı illərində yaşadıq. Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda iqtisadi böhran və siyasi xaos pik həddə çatmışdı.**

Təcrübəli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına səs verib gənc dövlətimizin siyasi hakimiyyətinin başına keçməsəydi, bu böhran və xaosun nə ilə nəticələnəcəyini demək indinin özündə də mümkün deyil. Bircə onu demək mümkündür ki, Ulu Öndərin həmin dövr apardığı islahatlar ölkəni təkcə sosial-iqtisadi və ictimai-siyasi böhrandan xilas etmədi, həm də bugünkü inkişafımızın təməli oldu.

Prezident İlham Əliyev də ölkəyə rəhbərlik etdiyi ilk dövrdən iqtisadi və sosial islahatların genişləndirilməsi istiqamətində praqmatik addımlar atır. İslahatlarla müşayiət olunan bu addımlar dünyada da yüksək qiymətləndirilir. Biznes və investisiya mühitinin əlverişliyini xarakterizə edən Dünya Bankının "Doing Business" hesabatının 2008-ci və 2018-ci illərdəki nəşrlərində Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. 2019-cu ildə isə Azərbaycan 10 ən çox islahat aparan ölkələr sırasına daxil olmaqla 190 dövlət arasında 28-ci yeri tutub. Dünya Bankının sonuncu hesabatında Azərbaycan biznesə başlama indikatoruna görə dünyada 9-cu, kreditlərin əldə olunmasına görə 1-ci yerdə qərarlaşıb. Bunlardan əlavə, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatının sonuncu reytinq nəşrində Azərbaycan reytinq üzrə ən yüksək artım tempinə (11 pillə irəliləyiş) malik ölkə olaraq 58-ci yerə yüksəlib. Hesabata görə, Azərbaycan hökuməti uzunmüddətli strategiya üzrə dünyada 10-cu, ən önəmlisi - ölkə rəhbərinin islahatlara sadiqliyi sahəsində 5-cidir. Dünya İqtisadi Forumunun nüfuzlu "İnklüziv İnkişaf İndeksi"nin sonuncu nəşrində isə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında 3-cü (74 ölkə arasında) olub.

Dünyanın nüfuzlu təşkilatları tərəfindən ölkəmizdə icra edilən islahatlara belə yüksək qiymət verilməsi görülən real işlərin nəticəsidir. Bu yüksək qiymət həm də ölkəmizin real sektorunda sahibkarlığın özünü təsdiq etməsinin göstəricisidir. Xüsusilə ölkə üzrə özəl sektor qeyri-neft-qaz sektorunda məhsul istehsalı və xidmət sahəsində liderdir. Konkret rəqəmlərə gəldikdə, Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-aprel aylarında qeyri-neft-qaz sektorunda 8,7 faiz artım qeydə alınmışdır. Həmin dövr sənayedə qeyri-dövlət sektorunun payı 80,8 faizə qədər yüksəlmişdir.

Onu qeyd edək ki, Azərbaycanda sahibkarlığın formalaşması və inkişafı birbaşa dövlət dəstəyi ilə mümkün olmuşdur. Dövlət tərəfindən bu sahəyə çoxsaylı güzəştlər edilir, sahibkarların hüquqları qorunur. Ən başlıcası isə, dövlət özəl sektorun inkişafı üçün onun maliyyə təminatını gücləndirir. Bu vaxtadək özəl sektorun inkişafı üçün yüz milyonlarla manat güzəştli kreditlər verilmişdir. Özəl sektorun güzəştli kreditləşməsi bu gün də davam edir. Sahibkarlığın İnkişafı Fondundan verilən məlumata görə, təkcə cari ilin yanvar-may aylarında sahibkarlıq subyektlərinin müxtəlif layihələrinin maliyyələşdirilməsi üçün 83,4 milyon manat güzəştli kredit verilib. Keçən il isə fond tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan 3276 sahibkara 193,8 milyon, o cümlədən 3261 kiçik və ortahəcmli layihəyə 139,3 milyon manat güzəştli kredit ayrılıb. Verilən kreditlər sayəsində 3154 yeni iş yerinin açılması planlaşdırılıb.

Onu da qeyd edək ki, güzəştli kreditlər verilərkən ölkənin qarşıya qoyulan strateji hədəfləri nəzərə alınır. Məsələn, ötən il güzəştli kreditlərin 55,1 faizi aqrar sektorun, 44,9 faizi müxtəlif sənaye məhsullarının istehsalı, emalı, həmçinin digər vacib sahələrin inkişafına yönəldilmişdir. Həmin kreditlərin 85,5 faizi regionların, 14,5 faizi Bakı və ətraf qəsəbələrin payına düşmüşdür ki, bütün bunlar da ölkəmizin iqtisadi inkişaf konsepsiyasına uyğundur.

Bu gün ölkənin ixrac-idxal əməliyyatlarında müsbət saldo mövcuddursa, ixracda qeyri-neft-qaz məhsullarının çəkisi ildən-ilə artırsa, deməli, islahatlar baş tutub. Əhalinin gəlirlərinin artması, məşğul əhalinin sayının yüksəlməsi də aparılan iqtisadi islahatlarla, sahibkarlığın inkişafına verilən dövlət dəstəyi ilə bağlıdır.

*Rüstəm KAMAL, "Azərbaycan"*

## Ölkə üzrə yanvar-may aylarında 26,2 milyard manatlıq sənaye məhsulları istehsal olunmuşdur

**Ölkə üzrə 2024-cü ilin yanvar-may aylarında 26,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 7,0 faiz artmışdır.**

Sənaye məhsullarının 64,7 faizi mədənçıxarma, 29,3 faizi emal, 5,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,1 faiz artmışdır.

Emal sektorunda tikinti materiallarının istehsalı 38,8, kompüter, elektron və optik məhsulların istehsalı 37,5, mebel istehsalı 36,6, metallurgiya sənayesi məhsullarının istehsalı 36,5, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 31,3, əczaçılıq məhsullarının istehsalı 29,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 25,7, elektrik avadanlıqlarının istehsalı 22,2, geyim istehsalı 21,3, tütün məmulatlarının istehsalı 18,4, içkilərin istehsalı 16,0, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 12,0, hazır metal məmulatlarının istehsalı 10,2, neft məhsullarının istehsalı 7,0, kimya sənayesi məhsullarının istehsalı 5,1, qida məhsullarının istehsalı 4,1, kağız və karton istehsalı 2,7 faiz artmış, ağacın emalı və ağacdan məmulatların istehsalı 7,2, toxuculuq sənayesi məhsullarının istehsalı 11,1, poliqrafiya məhsullarının istehsalı 16,6, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 17,4, sair nəqliyyat vasitələrinin istehsalı 18,4, maşın və avadanlıqların istehsalı 19,5, sair sənaye məhsullarının istehsalı isə 67,5 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 4,1 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 11,7 faiz artmışdır.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 1000 manatdan çoxdur

**DSK-nın məlumatına görə, cari il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 749,7 min nəfər olmuşdur.**



Onlardan 897,0 min nəfəri iqtisadiyyatın dövlət, 852,7 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,0 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 14,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 1007,5 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.



# Avro-2024





# Parisdən Berlinədək...

## Bu gün Futbol üzrə 17-ci Avropa Çempionatı başlayır

**Futbolsevərlərin böyük həyəcanla gözlədiyi an gəlib çatdı. Bu gün Almaniyada futbol üzrə sayca 17-ci Avropa çempionatı start götürəcək. Qitə birinciliyinin açılış matçında A qrupunda yer alan komandalar - meydan sahibləri Almaniya və Şotlandiya seçmələri üz-üzə gələcəklər. 6 qrupda 24 komandanın yer alacağı çempionatda qruplarında birinci və ikinci yerləri, həmçinin dörd ən yaxşı üçüncü yeri tutan yığmalar 1/8 finala yüksələcəklər. İyulun 14-dək davam edəcək çempionata 10 şəhər evsahibliyi edəcək.**

**Bu turnir haqqında qarşıdakı günlərdə daha çox danışacaq, matçlar haqqında şərhlər verəcəyik. Öncə qitə çempionatının tarixinə səyahət edək.**

### "Yeddiliyin görüşü"ndən SSRİ-nin çempionluğuna

Avropa çempionatının keçirilməsi təklifini ilk dəfə Fransa Futbol Federasiyasının baş katibi Anri Delone irəli sürüb. 1919-cu ildə Jül Rime Fransa Futbol Federasiyasının prezidenti olarkən Delone onun tövsiyəsi ilə həmin federasiyanın baş katibi vəzifəsini tutub. 1927-ci ildə Anri Delone FİFA-nın prezidentinə xidməti məktub göndərərək yığma komandaların Avropa çempionatı layihəsini təklif edib. Lakin qitə çempionatının keçirilməsi təklifi qəbul edilməyərək təxirə salınıb.

1950-ci ildə dünya çempionatı başa çatdıqdan sonra italyan futbol xadimi Ottorino Barassi Avropa çempionatı keçirmək uğrunda Deloneyə dəstək olmaq üçün fəaliyyətə başlayıb. O, Avropa komandalarının dünya çempionatlarındakı uğursuzluqlarının səbəbini təcrübəsizliklə izah edib. Qeyd edib ki, Cənubi Amerikada qitə çempionatları 1916-cı ildən müntəzəm olaraq keçirilir, avropalıların isə bu cür təcrübələri yoxdur.

Lakin FİFA 1952-ci ilin fevralında Avropa çempionatı keçirmək planını növbəti dəfə rədd edib. Beynəlxalq futbol təşkilatının bu mövqeyi Avropanın bir çox futbol xadiminin etirazı ilə qarşılanıb. Bunun nəticəsi olaraq elə həmin ilin iyununda Bazeldə FİFA-dan gizli 7 nəfərin iştirakı ilə görüş keçirilib. Görüşdə italiyalı Ottorino Barassi, fransız Anri Delone, belçikalı Joze Kray, şotlandiyalı Georq Qrem, Macarıstanın idman nazirinin müavini Qustav Şebeş, Avstriyanın ədalət naziri Yozef Geryu və danimarkalı Ebbe Şvarts iştirak ediblər.

"Yeddiliyin görüşü" əsl tarixi hadisə olub, onun planları isə tezliklə həyata keçirilib. Belə ki, 1952-ci il iyunun 22-də Berndə Avropa Futbol Assosiasiyaları İttifaqının - UEFA-nın yaradılması elan edilib. UEFA-nın ilk prezidenti Danimarka Futbol Federasiyasının rəhbəri Ebbe Şvarts, baş katibi isə Anri Delone olub. Bern şəhərində UEFA-nın yaradılması haqqında elan olunan bəyannaməni 25 ölkə dəstəkləyib.

1957-ci ilin əvvəllərində FİFA-nın 2-ci prezidenti Stenli Rouz (İngiltərə) Avropa çempionatının keçirilməsi haqqında öz layihəsini irəli sürüb. Avropa çempionatının keçirilməsi haqqında son layihə isə 1958-ci il iyunun 6-da UEFA-nın Stokholmda keçirilmiş konqresində təsdiq edilib. Yarışlar Avropa Millətlərinin Kuboku, qalibə verilən rəsmi mükafat isə "Anri Delone" kuboku adlandırılıb.

Beləliklə, azarkeşlərin intizarda olduqları futbol üzrə ilk Avropa çempionatı 1960-cı ildə Fransada keçirilib. Finalda Yuqoslaviya yığmasına 2:1 hesabı ilə qalib gələn SSRİ ilk Avropa çempionu kimi tarixə düşüb. Onlara fransız zərgər Mişel Şobinyonun hazırladığı gümüş kubok təqdim olunub.



1960-cı il, ilk Avropa çempionatının qalibi SSRİ yığması oldu

### İspaniya və Almaniya hegemonluğu

1964-cü ildə isə Avropa çempionatına İspaniya evsahibliyi edib. Madriddə keçirilən final matçında SSRİ yığmasına 2:1 hesabı ilə qalib gələn meydan sahibləri qitənin ən güclüsü olublar. 1968-ci ildə İtaliyada təşkil edilən turnirdə isə doğma meydan amilindən istifadə edən italyanlar finalda Yuqoslaviya yığmasını 2:0 hesabı ilə məğlub edərək Avropa çempionu titulunu qazanıblar.

1972-ci ildə Qərbi Almaniya finalda SSRİ yığmasına 3:0 hesabı ilə qalib gələrək Belçikada təşkil olunan sayca 4-cü qitə çempionatının qalibi olub. Qeyd edək ki, almanların heyətində Müller, Braytner, Netser və Frans Bekkenbauer kimi güclü oyunçular iki il sonra komandanın dünya çempionatındakı qələbəsini də təmin ediblər. Xatırladaq ki, həmin çempionatda Azərbaycan futbolunun yetirməsi Anatoli Banişevski də SSRİ yığmasının heyətində yer almışdı.

1976-cı ildə Yuqoslaviyada keçirilən turnirin finalında isə Çexoslovakiya ilə Qərbi Almaniya yığmaları üz-üzə gəlib. Görüşün əsas vaxtı heç-heçə (2:2) başa çatdığından qalibi müəyyənləşdirmək üçün 11 metrlik cərimə zərbələri təyin edilib. Penalti zərbələrini daha dəqiq yerinə yetirən Çexoslovakiya futbolçuları qalib gələrək (5:3) Avropa çempionu adına sahib olublar.

1980-ci ildə İtaliyada təşkil edilən Avropa çempionatının finalında Belçika və AFR yığmaları qarşılaşıblar. Romada keçirilən matçda Belçikaya 2:1 hesabı ilə qalib gələn almanlar tarixlərində 2-ci dəfə Avropa çempionu olublar.

1984-cü ildə Fransada təşkil olunan çempionatda meydan sahibləri ilk oyunda göstərdikləri yüksək ustalıq və texnika ilə turnirin favoritləri olduqlarını nümayiş etdiriblər. Parisdə final matçında İspaniya yığmasına 2:0 hesabı ilə qalib gələn fransızlar Avropa çempionu tituluna yiyələniblər.

1988-ci ildə Qərbi Almaniyada keçirilən turnirin finalında isə Hollandiya ilə SSRİ yığmaları üz-üzə gəlib. Görüş hollandların 2:0 hesablı qələbəsi ilə başa çatıb.

1992-ci ildə İsveçdə təşkil olunan turnirin finalında Danimarka Almaniyaya 2:0 hesabı ilə qalib gələrək Avropa çempionu olub. Onu da qeyd edək ki, bu çempionluğun maraqlı tarixçəsi var. Belə ki, gələcək Avropa çempionunun adı iştirakçılar sırasında yox idi. Final mərhələsinə vəsiqə qazanan Yuqoslaviya yığması idi. Lakin bu ölkədə alovlanan etnik müharibələr federativ dövlətin qitə birinciliyində iştirakını mümkünsüz edib və onun yeri Danimarka millisinə verilib. Danimarkalılar taleyin onlara bəxş etdiyi bu nadir şansdan tam gücü ilə istifadə edə biliblər.

1996-cı ildə İngiltərədə keçirilən turnirin finalında Almaniya ilə Çexiya yığmaları qarşılaşıb. Maraqlı mübarizə şəraitində keçən görüşün əsas vaxtı 1:1 hesabı ilə başa çatıb. Əlavə vaxtın birinci hissəsində almanların heyətində Oliver Birhoff çempionatın qələbə qolunu vurub. Qeyd edək ki, "qızıl qol" qaydasına görə, əlavə vaxtda ilk qolu vuran komanda qalib elan olunurdu.

2000-ci ildə tarixdə ilk dəfə olaraq Avropa çempionatına iki ölkə - Hollandiya və Belçika evsahibliyi edib. Turnirin finalında Fransa və İtaliya yığmaları üz-üzə gəlib. Görüşün əsas vaxtı heç-heçə (1:1) başa çatdığından 30 dəqiqə əlavə vaxt təyin edilib. Əlavə vaxtın 12-ci dəqiqəsində fransızların heyətində David Trezeqe "qızıl qol"un müəllifi olub - 2:1.

2004-cü ildə Portuqaliyada keçirilən çempionatda Yunanıstan qalib olmaqla böyük sensasiyaya imza atıb. Turnirin açılış oyununda olduğu kimi, finalda da ev sahibi Portuqaliya ilə Yunanıstan qarşılaşıb. Görüşün taleyini 57-ci dəqiqədə Angelos Xaristeasın vurduğu qol həll edib - 1:0. Beləliklə, yunanlar ilk dəfə Avropa çempionu olublar.

2008-ci il Avstriyada və İsveçrədə təşkil edilən turnirin finalında isə İspaniya və Almaniya yığmaları qarşılaşıb. Daha maraqlı oyun nümayiş etdirən ispanlar 1:0 hesabı ilə qalib gələrək Avropa çempionu adını qazanıblar.

2012-ci ildə Ukraynada və Polşada keçirilən Avropa çempionatında İspaniya millisi İtaliya yığmasına 4:0 hesabı ilə qalib gələrək ardıcıl 2-ci dəfə qitənin ən güclüsü olub.

2016-cı ildə Fransada keçirilən qitə çempionatının finalında isə meydan sahibləri ilə Portuqaliya yığması qarşılaşıb. Ederin vurduğu yeganə qol sayəsində qalib gələn portuqaliyalılar tarixlərində ilk dəfə Avropa çempionu olublar.

2020-ci ildə keçirilməli olan çempionat pandemiya səbəbindən 2021-ci ilə təxirə salınmışdı. Çempionata Bakı, Sankt-Peterburq, London, Münxen, Roma, Buxarest, Sevilya, Kopenhagen, Qlazqo, Budapeşt və Amsterdam şəhərləri evsahibliyi edib. Turnirin finalında İngiltərə və İtaliya seçmələri qarşılaşıblar. Görüşün əsas vaxtı heç-heçə (1:1) başa çatdığından qalibi müəyyənləşdirmək üçün penalti zərbələrində daha dəqiq olan italyanlar (3:2) sayca 2-ci dəfə Avropa çempionu ünvanına sahib olublar.

*Beləliklə, İspaniya 3 (1964, 2008, 2012), Almaniya 3 (1972, 1980, 1996), Fransa 2 (1984, 2000), İtaliya 2 (1968, 2021), SSRİ (1960), Çexiya (1976), Hollandiya (1988), Danimarka (1992), Yunanıstan (2004) və Portuqaliya (2016) hərəsi bir dəfə Avropa çempionu olublar.*

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**



Son Avropa çempionu İtaliya yığması

## Günün təqvimi

*14 iyun*

**A qrupu: 23:00 Almaniya - Şotlandiya**

**A QRUPU**
ALMANİYA
ŞOTLANDİYA
MACARISTAN
İSVEÇRƏ

**B QRUPU**
İSPANİYA
XORVATİYA
İTALİYA
ALBANİYA

**C QRUPU**
SLOVENİYA
DANİMARKA
SERBİYA
İNGİLTƏRƏ

- *Qrup mərhələsində qarşılaşmalar 14-26 iyun tarixlərində keçiriləcək*
- *1/8 final mərhələsində matçlar 29 iyun -2 iyul tarixlərində oynanılacaq*
- *1/4 final mərhələsi 5-6 iyul tarixlərində keçiriləcək*
- *1/2 final qarşılaşmaları 9-10 iyul tarixlərində oynanılacaq*
- *Final matçı isə 14 iyul tarixində Berlində baş tutacaq*

**D QRUPU**
POLŞA
NİDERLAND
AVSTRİYA
FRANSA

**E QRUPU**
BELÇİKA
SLOVAKİYA
RUMINİYA
UKRAYNA

**F QRUPU**
TÜRKİYƏ
GÜRCÜSTAN
PORTUQALİYA
ÇEXİYA

"Avro-2024"ün keçiriləcəyi

## 10 şəhər, 10 stadion

- **Berlin. Olimpiya stadionu**
  Tamaşaçı tutumu: 71000 nəfər. Oyun sayı: 6 (qrup, 1/8 final, 1/4 final, final)
- **Dortmund. "BVB Stadion Dortmund" stadionu**
  Tamaşaçı tutumu: 62000 nəfər. Oyun sayı: 6 (qrup, 1/8 final, 1/2 final)
- **Düsseldorf. "Düsseldorf Arena" stadionu**
  Tamaşaçı tutumu: 47000 nəfər. Oyun sayı: 5 (qrup, 1/8 final, 1/4 final)
- **Frankfurt-Mayn. "Frankfurt Arena" stadionu**
  Tamaşaçı tutumu: 47000 nəfər. Oyun sayı: 5 (qrup, 1/8 final)
- **Gelzinkirhen. "Feltins-Arena" stadionu**
  Tamaşaçı tutumu: 50000 nəfər. Oyun sayı: 4 (qrup, 1/8 final)
- **Hamburq. "Folksparkştadion" stadionu**
  Tamaşaçı tutumu: 49000 nəfər. Oyun sayı: 5 (qrup, 1/4 final)
- **Köln. "Köln Stadium" stadionu**
  Tamaşaçı tutumu: 43000 nəfər. Oyun sayı: 5 (qrup, 1/8 final)
- **Leypsiq. "Leypsiq" stadionu**
  Tamaşaçı tutumu: 40000 nəfər. Oyun sayı: 4 (qrup, 1/8 final)
- **Münxen. "Alyans Arena" stadionu**
  Tamaşaçı tutumu: 66000 nəfər. Oyun sayı: 6 (qrup, 1/8 final, 1/2 final)
- **Ştutqart. "Ştutqart Arena" stadionu**
  Tamaşaçı tutumu: 51000 nəfər. Oyun sayı: 5 (qrup, 1/4 final)





## Açılış matçı Türpenə tapşırıldı

**"Avro-2024"ün açılış oyununun hakimi müəyyənləşib. UEFA Almaniya və Şotlandiya komandaları arasında keçiriləcək bu görüşə baş hakim kimi Kleman Türpeni təyin edib.**

Fransa Futbol Federasiyasından olan referiyə Nikolya Dano və Benjamen Paj kömək edəcəklər. Fransua Leteksye dördüncü hakim olacaq, Jerom Brisar isə VAR-a nəzarət edəcək.

## Ronaldu çempionluğa inanır

**Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldu "Avro-2024" turnirinin qalibi olacaqlarına inandıqlarını deyib:**

"Mən inanıram ki, bu komanda portuqaliyalı azarkeşlərə böyük sevinc bəxş edəcək. Ümid edirəm ki, komanda qalib gələcək. Çünki bizim inanılmaz dərəcədə istedadlı futbolçularımız var. Bildiyimiz kimi, qalib olmaq üçün təkcə istedad kifayət deyil. Belə böyük turnirdə qalib gəlmək üçün çox şey lazımdır. Bizdə isə lazım olan hər şey var. Addım-addım, oyundan-oyuna məqsədimizə doğru irəliləyəcəyik. 2016-cı ildə qazanılan qələbə həm Portuqaliya, həm də dünya futbolu üçün tarixi idi. Biz "Avro-2024"ü qazana biləcəyimizə inanırıq".








# Bonn şəhərində COP29-a hazırlıq məqsədilə jurnalistlər üçün seminar-treninqlər təşkil olunub

**Almaniyanın Bonn şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC ) təşkilatçılığı ilə müxtəlif ölkələrdən olan jurnalistlər üçün seminar-treninqlər təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, COP29-a hazırlıq, o cümlədən iqlim mövzusunda jurnalistlərin təcrübələrinin artırılması məqsədilə keçirilən tədbirlərdə BMT Katibliyinin iqlim üzrə mütəxəssisləri iqlim mövzusunda məruzələrlə çıxış edirlər.

Müxtəlif dillərdə təşkil olunan seminar-treninqin ilk günündə BMT Katibliyinin iqlim üzrə xarici əlaqələr katibi Denis Popov iqlim üzrə danışıqların tarixi və indiki mərhələsi barədə ətraflı məlumat verib. Jurnalist və BMT-nin iqlim üzrə müşahidəçisi Anqelina Davidova "Ekologiya haqda necə maraqlı və effektli yazmaq olar?" və "BMT-nin iqlim konfranslarını işıqlandırarkən nəyi bilmək faydalı olar?" kimi mövzularda çıxış edib.

Habelə ekologiya və iqlim məsələlərini sosial şəbəkələrdə işıqlandırmaq kimi mövzular ətrafında müzakirələr aparılıb.

Seminar-treninqin iştirakçıları mətbuat konfranslarına da qatılırlar.

# İqlim naminə Parisdən Bakıya velosiped turu

**COP29 konfransına iqlimlə bağlı on velosiped təklifini çatdırmaq üçün bir qrup velosipedçi Fransadan Azərbaycanın paytaxtı Bakıya yola düşəcək.**




AZƏRTAC xəbər verir ki, velosipedçilər tarixi iqlim sazişinin (COP21) imzalandığı Parisdən COP29-un keçiriləcəyi Bakıya 6 min 500 kilometrlik velosiped turuna hazırlaşıblar.

Velosipedçilər qrupu irəlilədikcə onlara Fransa şəhərlərindən, Niderlanddan, Almaniyadan, Bolqarıstandan, Türkiyədən və digər yolüstü ölkələrdən yeni iştirakçılar qatılacaqlar.

Qrupun məqsədi istixana qazlarının tullantılarının azaldılması üçün velosiped sürməyin əhəmiyyəti barədə məlumatlılığın artırılması ilə yanaşı, iştirakçı ölkələrin iqlim planlarında bu idman növünü inkişaf etdirmək üçün COP29 tədbirində 10 konkret təklif təqdim etməkdir. Bu təklifləri dəqiqləşdirmək üçün marşrut boyu əsas şəhərlərdə ekspertlər, birliklər və bələdiyyə nümayəndələri ilə görüşlər keçiriləcək.

İdeyanın tərəfdaşı "CycloTransEurope" bu maraqlı macəranı dəstəkləyib və Fransa Velosiped Turizm Federasiyasının üzvü olan bütün velosipedçiləri startda və mərhələlərdə qoşulmağa dəvət edib.

Velosipedçilərin yola düşməsi ilə bağlı tədbir iyunun 15-də Parisdə keçiriləcək.

# "Yaşıl səma" da COP29-un gündəliyində yer alacaq

**Xəbər verildiyi kimi, Bakıda "Azərbaycan Hava Yolları" QSC-nin "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin (AZANS) təşkilatçılığı ilə Beynəlxalq Mülki Aeronaviqasiya Xidmətləri Təşkilatının (CANSO) Ümumdünya Aeronaviqasiya Sammiti keçirilib. Tədbirdə hava hərəkətinin təşkili sahəsində dünya liderləri və CANSO-nun üzvləri təşkilatın gələcəyi üçün əsas məsələlərin müzakirəsində və vacib qərarların qəbul olunmasında iştirak ediblər.**

Bu gün dünyada qlobal istiləşməni törədən iqlim dəyişikliyində aviasiyanın rolu danılmazdır. Bu sektor havaya buraxılan emissiya qazları baxımından ən sürətlə böyüyən bir qurumdur. Aparılan tədqiqatlar sübut edib ki, təyyarələrdə karbon dioksid emissiyaları 2013-2019-cu illər arasında 30 faiz artıb. Sonrakı beş ildə bu faiz azalma tendensiyası ilə müşahidə olundu. Pandemiyadan dolayı bütün dünyada uçuşlar dayandırıldı və aviasiyanın $CO_2$ emissiyaları 60 faizə qədər azaldı. Lakin bəşəriyyətin baş ağrısı olan COVID19 bəlası artıq yox olmaq dərəcəsində yer aldığı üçün bu gün aviasiya sektoru tam sürətlə işinə davam edir. Bu, belə də olmalıdır. Çünki qlobal dünyanı hava nəqliyyatı olmadan təsəvvür etmək mümkün deyil. Uçuşlar birdəfəlik dayanarsa, dünya ciddi logistik problemlə üz-üzə qalar. Bu bir tərəfdən iqtisadiyyatın enməsinə, turizmin ciddi əziyyət çəkməsinə səbəb olsa da, digər tərəfdən təyyarələrdə yanacağın yandırılması nəticəsində yaranan $CO_2$ emissiyalarının 2,5 faizinin dondurulmasına gətirib çıxaracaq. Nəticədə karbon qazı emissiyaları ildə təxminən bir milyard ton azalacaq. İlk baxışda ürəkaçan nəticədir, amma təyyarəsiz də olmaz.

Hazırda bütün dünya üzrə uçuşların müddəti marşrutdan asılı olaraq 30 dəqiqədən 5 saata qədər artıb ki, bu da karbon qazı emissiyalarının çoxalmasına təsir edir. Yanan bir litr aviasiya yanacağı havaya 2,5 kiloqramdan çox karbon qazı buraxır. Bir saatlıq uçuş zamanı 3000 litr yanacaqdan istifadə olunur. Deməli, hər əlavə uçuş saatı karbon qazı emissiyalarını 7,5 ton artırır. Qeyd edək ki, 2022-ci il ümumdünya karbon emissiyalarının hesabatına görə, neftin yanmasından emissiyalar 2,5 faiz və ya 268 milyon ton artaraq 11,2 milyard tona çatıb. Bu artımın təxminən yarısı - 134 milyon tonu hava nəqliyyatının payına düşür.

Bu və bu kimi digər məsələləri özündə əks etdirən Ümumdünya Aeronaviqasiya Sammitinin əsas mövzusu da məhz ekoloji dayanıqlıq, xüsusilə iqlim dəyişikliyi ilə mübarizə idi. İştirakçılar karbon emissiyalarının azaldılması, qabaqcıl texnologiyaların tətbiqi, ekoloji cəhətdən daha təmiz uçuşlara nail olmaq üçün hava hərəkətinin idarə edilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Həmçinin CANSO sammitində aviasiya üçün vacib olan bir sıra mühüm mövzular müzakirə olunub. Aviasiyadakı qabaqcıl texnologiyalara, karbon emissiyalarının azaldılması və hava hərəkətinin təkmiləşdirilməsi həllərinə xüsusi diqqət yetirilib. Bakıda keciriləcək COP29 ərəfəsində 2050-ci ilə qədər aviasiyanın ətraf mühitə təsirinin azaldılması üçün həll yollarına baxılıb. Peşəkar kadr ehtiyatının yaradılması və aviasiya sahəsinə artan tələbatın öhdəsindən gəlinməsi, hava hərəkətinin idarə edilməsinin təkmilləşdirilməsi barədə müzakirələrin aparılması da əhəmiyyət kəsb edib. Xüsusən də, ekoloji cəhətdən daha təmiz səmanın - "yaşıl səma"nın təmin edilməsi üçün rəqəmsal texnologiyalardan istifadə meyarları nəzərdən keçirilib və hər cür yeniliyi özündə ehtiva edən vacib qərarlar qəbul olunub.

Əslində, aviasiya liderlərinin Bakıda bir araya gəlməsi iqlim dəyişikliyinin fəsadlarının azaldılması üçün qlobal əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini hər kəsə xatırlatdı. Azərbaycanın ətraf mühitin mühafizəsi sahəsində atdığı addımlar danılmazdır. Tədbir iştirakçıları məhz bu faktın üzərində dayanaraq gələcək nəsillər üçün planetin ekosisteminin qorunması yolunda daha sürətli addımlar atmağın yolunu tapmağa çalışıblar. CANSO-nun baş direktoru Saymon Hokkard deyib: "Təşkilatımız dünya hava nəqliyyatının 90 faizini əhatə edir. Aviasiya sahəsi çox mühüm bir hədəfə, yəni 2050-ci ilədək sıfır karbon emissiyalarına nail olmaq niyyətindədir. Bunun üçün çox böyük işlər görülməlidir. Bildiyiniz kimi, karbon emissiyalarının 2 faizi aviasiyanın payına düşür. Əgər biz bu məsələni həll etməsək, həmin rəqəm yaxın 20 il ərzində 22 faizə çata bilər".

Son onilliklərdə karbon emissiyalarının aviasiyaya düşən payı dəmir yolu, avtomobil və dəniz yolu ilə müqayisədə daha çoxdur. Bu fikri COP29 prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev sammitdə çıxış edərkən açıqlayıb: "Səyləriniz və öhdəliyiniz aviasiya üçün davamlı gələcəyin formalaşdırılması üçün çox vacibdir. Biz birlikdə bütün dünyada hava hərəkətinin idarə edilməsinin səmərəliliyini artıra və ümumi iqlim məqsədlərimizə nail olmaq üçün böyük töhfə verə bilərik. Gəlin bu tədbirdən fikir mübadiləsi aparmaq, ən yaxşı təcrübələri bölüşmək və yeni əməkdaşlıqlar qurmaq üçün platforma kimi istifadə edək. Bir araya gələriksə, bu sahə qlobal qaz emissiyaları məsələsini həll edə və ümumi iqlim hədəflərimizə əhəmiyyətli dərəcədə töhfə verə bilər".

Bu sammitin keçirilməsi əsas verir ki, noyabrda baş tutacaq BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında aviasiya problemləri, onun törətdiyi fəsadlar müzakirə olunsun, karbon emissiyalarının maksimum azaldılması yollarında addımlar atılsın.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

İyunun 13-ü saat 19:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri ni atıcı silahlardan atəşə tutublar.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Bəzi bölgələrə leysan xarakterli yağış yağıb, Qobustan rayonuna dolu düşüb

**İyunun 13-ü saat 20:00-a olan məlumata əsasən, Altıağac, Şahdağ, Xaltan, Quba, Qusar (Laza), Xınalıq, Qobustan, Qrız, Şabranda arabir leysan xarakterli yağış yağıb, şimşək çaxıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, yağan leysan xarakterli yağışlar nəticəsində saat 15:43 radələrində Quba rayonu Xaltan kəndi ərazisindən keçən Xarmidorçaydan sel keçib.



Saat 18:42-18:53 radələrində Qobustan rayonuna diametri 14-20 mm olan dolu düşüb.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20



**"Azİnşaat Layihə" QSC-nin 31 mart 2022-ci il tarixli İN/L-90/2022/1 nömrəli tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi lisenziyasının Əlavəsi itdiyi üçün etibarsız sayılır.**


## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və komitənin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiya üzvləri Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Məhərrəm və Adil Əliyevlərə qardaşları

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oruc Zalov Məhərrəm, Pənah və Adil Əliyevlərə qardaşları

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Azərbaycan Respublikasının Belarus Respublikasındakı səfiri Məhərrəm Əliyevə və Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşları

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədr müavini Adil Əliyevə və Azərbaycan Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyevə qardaşları

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4409
Sifariş 1283

Qiyməti 60 qəpik